www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 31 yanvar-1 fevral 2015-ci il Şənbə № 22 (6050) Qiyməti 40 qəpik

**Xəbər**

## Bu gün Rəsulzadənin doğum günüdür

yazısı səh.4-də

**Gündəm**

### Nazir oğlu "əjdaha" rolunda



"Hafka"ya iki böyük zərbə; keçmiş şəriklərin davası yeni mərhələdə; Anar Məmmədov "Bakı" klubunun bazasının suyunu kəsdirib...

yazısı səh.13-də

### "İkinci Qarabağ müharibəsi hər an başlaya bilər"

yazısı səh.6-da

### Nazir özbaşına xidməti tərk edən rəis müavinini işdən qovdu

yazısı səh.2-də

### Girovlarımızın durumu pisləşib

yazısı səh.6-da

### Rusiya-Qərb savaşı yeni mərhələdə

yazısı səh.8-də

### Tanınmış qadın prodüser insan alverinə görə həbs edildi

yazısı səh.2-də

### İŞİD Kərkükə və Misirdə Sina yarımadasına hücum etdi

yazısı səh.9-da

### ABŞ-ın yeni səfirinin Azərbaycana nə vaxt gələcəyi bəlli oldu

yazısı səh.2-də

### Dünya mətbuatında "tərifli" yazılar necə sifariş edilir?

yazısı səh.10-da

### Metroda ticarət bərpa olunur, bəs qəzet satışı?

yazısı səh.5-də

### "Lamiyə Quliyevanın uşağının atası haqda dedikləri inandırıcı deyil..."

yazısı səh.11-də

### AŞPA-da nümayəndə heyətimizin tutduğu mövqe birmənalı qarşılanmır

yazısı səh.5-də

## Ermənistan Qərbin anti-Rusiya xoruna qoşulur?

# İRƏVANDAN BAKIYA QİYMƏTLİ "KART-BLANŞ" - təhlil

AŞ PA-da Azərbaycan və Türkiyə Kremli dəstəklədiyi halda, Ermənistan nümayəndə heyəti müttəfiqinə qarşı sənədə etiraz etməyib; Moskva-Bakı-Ankara üçbucağının güclənməsi fonunda İrəvan daha bir "xaric səs" çıxarıb; Moskvaya qarşı de-marşla işğalçı ölkə Qərbə hansı mesajı verir?..

yazısı səh.9-da



Firudin Nəbiyev

# Miqrasiya Xidmətində korrupsiya əməliyyatları - iddialar

Qurumun rəhbəri Firudin Nəbiyevin vətəndaşları necə incitməsi, rəhbərlik etdiyi sahədə yaratdığı korrupsiya labirinti barədə şikayət var; DMX rəisinin biznes şəbəkəsi və avtomobil kolleksiyasının siyahısı bu yazıda

yazısı səh.11-də



## Zəfər Quliyev torpağa tapşırıldı

yazısı səh.3-də



*Hikmət Hacızadə:*

## "Amerika istəmir ki, Azərbaycan Rusiya tərəfə keçsin"

yazısı səh.8-də



## İsmət Abbasov yediyi subsidiyaları qaytaracaqmı?

yazısı səh.15-də

**31 yanvar 2015**

# Ramil Usubov özbaşınalıq edən rəis müavinini qovdu


Ramil Usubov

**Bakıda rəis müavini işdən çıxarılıb. Hüquq-mühafizə orqanlarından "Report"a istinadən verilən məlumata görə, Xətai rayon Polis İdarəsinin (RPİ) 36-cı Polis Bölməsinin (PB) rəis müavini polis mayoru Bəhruz Əliyev vəzifəsindən uzaqlaşdırılıb.**

Belə ki, B.Əliyev bölmənin rəisi Vidadi Qurbanov məzuniyyətdə olduğu müddətdə xidmət yerini özbaşına tərk edərək xarici ölkələrdən birinə istirahətə yollanıb. Daxili İşlər Nazirliyi (DİN) və Bakı şəhər Baş Polis İdarəsinin (BŞBPİ) rəhbərliyi məsələdən xəbərdar olan kimi B.Əliyev vəzifəsindən çıxarılıb.

Artıq 36-cı bölməyə yeni rəis müavini də təyin edilib. Belə ki, buna qədər 31-ci PB-də eyni vəzifədə çalışan Anar Həbibzadə, 36-cı PB-nin rəis müavini vəzifəsinə təyinat alıb.

DİN-in mətbuat xidməti B.Əliyevin sərəncama göndərildiyini təsdiqləyib.

# Köçəryan Sarkisyanı yıxmaq üçün işə başladı


Robert Köçəryan

**Ermənistanın "Aykakan Jamanak" qəzeti maraqlı iddia irəli sürüb. Qəzet ölkənin keçmiş prezidenti Robert Köçəryan tərəfindən yüksək vəzifəli məmurların qeyri-formal klubunun yaradıldığını bildirib.**

Qəzet yazır: "Etibarlı mənbələrdən əldə etdiyimiz kimi, indiki hakimiyyətdə eks-prezident Robert Köçəryana yaxın olan nümayəndələr, eləcə də ona iltifat edən bəzi keçmiş yüksək vəzifəli məmurlar yaxın gələcəkdə qeyri-formal klub yaradaraq hakimiyyət uğrunda mübarizəyə qoşulacaqlar".

Məqalədə deyilir ki, klubun üzvləri əsasən prezident Serj Sərkisyan dövründə işdən çıxarılan, istefa verən, həmçinin ona bütün ümidlərini itirən məmurlardır. Bu şəxslər iqtidara gəldikdə yenidən yüksək vəzifələrə təyin olunacaqlar.

Bu klubun potensial üzvləri arasında İrəvanın keçmiş polis rəisi Andranik Mirzoyan, Ermənistanın Xüsusi İstintaq Xidmətinin sabiq rəhbəri Nerses Nazaryan, həmçinin Ermənistan Polis İdarəsinin Baş Cinayət-Axtarış İdarəsinin sabiq rəisi, general-mayor Ovanes Tamamyanın adları çəkilir (ANS PRESS)

# İstanbulda polis məntəqəsinə silahlı qadın basqını

**İstanbulda "Taksim" meydanında polis məntəqəsinə silahlı basqın olub. "Report" Türkiyə KİV-ə istinadən xəbər verir ki, atəş açan şəxsin qadın olduğu ehtimal edilir. Basqından sonra o, avtomat silahı hadisə yerində qoyaraq qaçıb. Naməlum şəxsin tutulması istiqamətində əməliyyat-axtarış tədbirləri başlayıb. Basqın nəticəsində ölən və ya yaralanan olmayıb. Hadisənin ardınca "Taksim"də şübhəli paketlə də bağlı həyəcan siqnalı verilib.**

# "Xocalı faciəsi dünyadakı kütləvi qətllər sırasındadır"

## İsrail prezidenti Reuven Rivlin: "Biz həddən çox göz yaşı axıdır, amma az iş görürük"

**İsrail prezidenti Reuven Rivlin BMT Baş Assambleyasında Holokost *(yəhudi soyqırımı)* qurbanları ilə bağlı keçirilən mərasimdəki çıxışında Xocalı faciəsini də dünyada törədilən soyqırımlar və kütləvi qətllər sırasında qeyd edib.**


Reuven Rivlin

APA-nın İsrail XİN-in rəsmi saytına istinadən verdiyi məlumata görə, antisemitizmə, şovinizmə və bəşəri cinayətlərə qarşı mübarizədən söz açan İsrail prezidenti bildirib ki, dünya ictimaiyyəti həddən çox göz yaşı tökür, amma daha az iş görür: "Bu gün biz özümüzdən soruşmalıyıq ki, bizim assambleyanın soyqırımlara qarşı mübarizəsi yetərli olubmu? Bu mübarizə Bosniyadakı soyqırımın qarşısını almaq üçün kifayət qədər səmərəliydimi? Xocalıda insanların ölümünün qarşısını almaq üçün səmərəliydimi? Bəs Taliban tərəfindən əfqanların öldürülməsinin?! Bu gün bu mübarizə Suriyada yetərlidirmi? Nigeriyada "Boko Haram"ın törədiklərinin qarşısını almaq üçün kifayət edirmi? Biz həddən çox göz yaşı axıdır, amma az iş görürük".


Yaşar Quliyev

# Xanım həmkarını döyən müəllim tutuldu

**Bakıda xanım həmkarını ölümcül döyən kişi həbs olunub. "Qafqazinfo" ANS-ə istinadən xəbər verir ki, Suraxanı rayonu 154 saylı orta məktəbin müəllimi olan Yaşar Quliyevə Suraxanı Rayon Məhkəməsi hökm çıxarıb. 69 yaşlı müəllimə Arifə Yusifovanı amansızcasına döyən 33 yaşlı Yaşar Quliyev 4 ay müddətinə azadlıqdan məhrum edilib. O, Cinayət Məcəlləsinin 128-ci maddəsi ilə təqsirləndirilib. Hazırda Yaşar Quliyev Şüvəlanda yerləşən 3 saylı təcridxanada saxlanılır. Xatırladaq ki, 154 saylı məktəbin direktoru müəllimənin adıçəkilən məktəbdə işləmədiyini və döyülmə faktının ailə münaqişəsi zəminində baş verdiyini bildirmişdi. Elə təqsirkar Yaşar Quliyev də baş verənlərin məktəblə heç bir əlaqəsinin olmadığını vurğulamışdı.**


Robert Sekuta

# ABŞ-ın yeni səfirinin Azərbaycana nə vaxt gələcəyi bəlli olub

**ABŞ-ın Azərbaycana yeni təyin olunmuş səfiri Robert Sekuta fevralın 12-də Bakıya gələcək. Bu barədə APA-ya səfirliyin mətbuat xidmətindən məlumat verilib. Qeyd edək ki, R.Sekutanın səfir postuna namizədliyi ötən ilin dekabrında ABŞ Senatı tərəfindən təsdiqlənib. Ondan öncə ABŞ-ın Azərbaycandakı səfiri Riçard Morninqstar olub.**


Vəfa Vaqifqızı

# Tanınmış qadın prodüser insan alverinə görə həbs edildi

**Tanınmış azərbaycanlı prodüser Vəfa Vaqifqızı (Məmmədova) həbs edilib. Bu haqda vesti.az məlumat yayıb. Lent.az-ın məlumatına görə, V.Məmmədova qadınları fahişəliyə cəlb etməkdə şübhəli bilinir. Şou-biznesdə bir çox tanınmış müğənnilərlə çalışan xanım prodüser dekabr ayında tutulsa da, bu barədə məlumatlar son günlərdə yayılıb. Faktla bağlı araşdırmalar davam etdirilir. "Qafqazinfo"nun əldə etdiyi məlumata görə, Vəfa Vaqifqızı əməkdar artist Nüşabə Ələsgərli, Nazənin, Mənzurə Musayevanın prodüserliyini edib.**



# Zakir Qaralov girovlarla bağlı cinayət işini xüsusi nəzarətə götürdü

**Girovlarımızla bağlı cinayət işinin istintaqı Baş prokurorun xüsusi nəzarətinə götürülüb. Baş Prokurorluqdan verilən məlumata görə, 2014-cü ilin iyul ayında Dilqəm Əsgərov, Şahbaz Quliyev və Həsən Həsənovun yaxın qohumlarının məzarlarını ziyarət etmək məqsədilə Ermənistan silahlı birləşmələri tərəfindən işğal olunan Kəlbəcər rayonunun ərazisində olub.**

Bu zaman münaqişə tərəfinin silahlı qüvvələrinin tərkibinə daxil olmayan və bilavasitə döyüş əməliyyatında iştirak etməyən mülki şəxslər olmalarına baxmayaraq, işğalçı dövlətin hərbiçiləri tərəfindən əsir götürülərək onlara işgəncələr verilib.

Həmçinin beynəlxalq hüquq normalarına qəsdən zidd olaraq həbs edilib prosessual hüquqlardan məhrum edilməklə Həsən Həsənovun odlu silahla qəsdən öldürülməsi, Şahbaz Quliyev və Dilqəm Əsgərovun barəsində isə heç bir dövlət tərəfindən tanınmayan, qondarma "Dağlıq Qarabağ Respublikası" adından saxta ittihamlar irəli sürülərək hökm çıxarılıb.

Sadalanan faktlar üzrə Kəlbəcər Rayon Prokurorluğunda başlanmış cinayət işi üzrə Cinayət Məcəlləsinin 115.2 *(Müharibə qanunlarını və adətlərini pozma)*, 115.4, 116.0 *(Silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma)* və 116.0.18-ci maddələri ilə zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir. Cinayət işinin istintaqı Azərbaycan Respublikası Baş prokurorunun xüsusi nəzarətinə götürülüb.

# "Bu təxribatdır..."

## Uorlik pilotsuz təyyarənin ermənilərə məxsusluğunu təsdiqlədi

**ATƏT-in Minsk Qrupunun amerikalı həmsədri Ceyms Uorlik Dağlıq Qarabağ münaqişəsi zonasında pilotsuz təyyarələrdən istifadə ilə bağlı narahatlıq keçirdiyini bildirib. Musavat.com-un məlumatına görə, bu barədə diplomat özünün twitter-dəki mikrobloqunda yazıb. "Təmas xəttində pilotsuz təyyarədən istifadə - təxribatdır. Tərəflər gərginliyi azaltmalıdırlar", - deyə amerikalı həmsədr qeyd edib. Xatırladaq ki, dünən Azərbaycan cəbhə xəttində erməni tərəfinə məxsus pilotsuz təyyarəni vurub. Hadisənin video-görüntüsü də yayılıb. Ermənistan Müdafiə Nazirliyinin mətbuat katibi Arsrun Ovanisyan isə iddia edib ki, guya Azərbaycan özü öz təyyarəsini məhv edib. Uorlikin açıqlaması isə pilotsuz təyyarənin məhz ermənilərə məxsusluğunun təsdiqi hesab edilə bilər.**

❑ Musavat.com

"GÜNDƏM XƏBƏR" QƏZETİ NƏŞRİNİ BƏRPA EDİR




02 fevral 2015-ci ildən satışda

Nəşr olunduğu müddət ərzində geniş oxucu auditoriyası toplamış, ölkədə və dünyada baş verən hadisələrə özünəməxsus obyektiv yanaşması ilə seçilən "Gündəm xəbər" qəzeti maliyyə çətinlikləri ilə əlaqədar olaraq fəaliyyətini dayandırmışdı.

Qəzetin son sayı 20 iyun 2014-cü ildə nəşr olunub. "Gündəm xəbər" qəzeti satış bazarından əldə olunan gəlirlər hesabına öz mövcudluğunu qoruyub saxlayırdı. Lakin, redaksiyanın özündən asılı olmayan səbəblərdən yaranmış maliyyə çətinlikləri sonda qəzetin fəaliyyətinin dayandırılmasına səbəb oldu. Belə ki, "Metro Servis" MMC-nin qərarı ilə metro stansiyalarında qəzet satışı dayandırıldı. Həmçinin "Qaya MMC-nin və "Qasid" ASC-nin satış köşklərinin şəhərin bir çox hissələrindən götürülməsi qəzetin yayımında problemlər yaratdı. Belə maneələrin yaradılması və yay fəslində qəzet satışında müşahidə olunan ənənəvi problemlər sonda ölkənin tanınmış bir qəzetinin nəşrinin dayandırılması ilə nəticələndi.

Lakin, "Gündəm xəbər" qəzeti nəşr olunmadığı dövrdə belə diqqətli oxucularımız daima onun fəaliyyətə başlaması üçün müraciətlər edirdilər. Ölkədə və dünyada baş verən proseslərdən kənarda qalmamaq, dəyərli oxucularımızın çoxsaylı müraciətlərini nəzərə alaraq yenidən "Gündəm xəbər" qəzetinin fəaliyyətinin bərpa olunmasına qərar verilib. Bütün çətinliklərə rəğmən dayandığımız yerdən başlamaq niyyətindəyik. Ümidvarıq ki, dəyərli oxucularımız bizi bu çətin yolda tək buraxmayacaqlar. "Gündəm xəbər" kollektivi hər zaman öz diqqətli oxucularının dəstəyini hiss edib. Fəaliyyətimizin yeni dönəmində də bunun belə olacağına inanırıq.

Artıq qəzetimizin nəşrinə yenidən başlamağa qərar verdik və 02 fevral 2015-ci il tarixdən etibarən qaldığımız yerdən davam edəcəyik. Hər həftənin I, II, III, IV, V və VI günləri satışda olacağıq. Sizinlə olmadığımız dövrdə biz dəyişmədik. Sözün düzünü, həqiqətin ən doğrusunu paylaşmaq üçün yenidən sizinləyik. Gündəmin nəbzini bizimlə tutacağınıza inanırıq!

*"Gündəm Xəbər" kollektivi*

Yeni MÜSAVAT
N 22 (6050) 31 yanvar 2015



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

# Günün içindən

**“Yeni Müsavat” ailəsinin üzvü olan rusdilli Minval.az saytının eksperti Zəfər Quliyevin yanvarın 29-da səhər saatlarında Tiflisdə dünyasını dəyişdiyi barədə məlumat vermişdik. Dünən gecə tanınmış politoloqun cənazəsi Bakıya gətirilib və yanvarın 30-da Bülbülə kəndinin Bakıxanov qəsəbəsi istiqamətindəki Qaraçuxur qəbiristanlığında torpağa tapşırılıb.**







# Zəfər Quliyev torpağa tapşırıldı

## Mərhum politoloq son mənzilə dostlarının çiyinlərində getdi...

### Rauf Arifoğlu: “Ölümü ilə ona olan inamımızı sarsıtdı...”







### İsa Qəmbər: “Zəfər bəy çox şərəfli bir həyat yaşadı...”

### Arif Hacılı: “Cəmiyyətimiz böyük itki verdi...”





**Zəfər Quliyevlə vida mərasimi “Gənclik” metrostansiyası yaxınlığında yerləşən evində (Akademik Həsən Əliyev 92c) olub.** Vida mərasimi səhər saatlarından başlayıb. Mərasimdə ölkənin tanınmış simaları - Milli Strateji Düşüncə Mərkəzinin (MSDM) sədri İsa Qəmbər, “Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu, Müsavat başqanı Arif Hacılı, AXP lideri Pənah Hüseyn, “El” Hərəkatının sədri Eldar Namazov və başqaları, ictimai fəallar, mərhumun həmkarları və çalışdığı qəzetin əməkdaşları iştirak ediblər.

Cənazə saat 14:00-da yaşadığı ünvandan götürülərək, dəfn olunmaq üçün Qaraçuxur qəbiristanlığına aparılıb. Dəfn mərasimində tanınmış simalar çıxış ediblər.

**MSDM rəhbəri İsa Qəmbər deyib ki, Azərbaycan böyük mütəfəkkirini, təvazökar filosofunu itirdi:** “Biz də gözəl bir dostumuzu itirdik. Təsəllimiz budur ki, Zəfər bəy çox şərəfli bir həyat yaşadı. Böyük bir irs, istedadlı övladlar qoyub, getdi. Allah rəhmət etsin, yaxınlarına və övladlarına baş sağlığı verirəm”.

**“Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu** Zəfər Quliyevin timsalında yaxın bir dost, qardaşını itirdiyini söyləyib: “Mən Zəfər Quliyevi gec tanıdım. Amma onun timsalında bir qardaş, dost, eyni zamanda "Yeni Müsavat" ailəsinə daxil olan sayt, qəzetlər üçün böyük və dünya miqyasına çıxarıla biləcək bir mütəfəkkir, fikir adamını qazandım. Zəfər bəyə çox güvənir, inanırdım. O, birgə çalışdığımız 2 il 3 ay müddətində güvən, inamımı sarsıdacaq bir hərəkətə yol vermədi. Yalnız bu dəfə ölümü ilə ona olan inamımızı sarsıtdı. Biz onu müalicəyə göndərmişdik. Onunla bir yerdə daha böyük, ciddi planlarımız var idi. İstəyirdik daha sağlam olsun. Amma çox təəssüf ki, o, gözlənilmədən faciəli şəkildə dünyasını dəyişdi. Bu, bizi çox üzdü. Bizim faktla barışmaqdan və Allahdan dua etməkdən başqa çıxış yolumuz qalmır. Mənim ağrılarım Zəfər bəyin ölümü ilə bağlı yaxınlarının ağrılarından, keçirdikləri hisslərdən bir az yüngül, fərqli ola bilər. Amma mən də bir qardaş, yaxın adam, dost, millətimə məxsus böyük bir fikir adamını itirməyin ağrısını yaşayıram. Hamımızın baş sağ olsun!"

**Müsavat başqanı Arif Hacılı Zəfər Quliyev itkisinin acısını yaşadıqlarını qeyd edib:** “Zəfər bəy Azərbaycan cəmiyyəti öcün dəyərli şəxsiyyətlərdən idi. O, daim cəmiyyətimizin problemləri barədə müzakirə açan bir insan idi. Hesab edirəm ki, Zəfər bəyin itkisi təkcə onun ailə üzvləri, dost, yaxınları üçün deyil, onu tanıyan bütün şəxslər, bütövlükdə Azərbaycan üçün çox böyük itkidir. Zaman-zaman onun itkisinin yeri görünəcək. Azərbaycan cəmiyyəti Zəfər Quliyevin qiymətini verəcək. O, bəşəriyyətin yaxşılaşdırılması istiqamətində fəaliyyət göstərən şəxs idi. Cəmiyyətimiz böyük itki verdi”.

Zəfər Quliyevlə uzun müddət bir yerdə çalışan **"Turan" İnformasiya Agentliyinin rəhbəri Mehman Əliyev** də xatirələrini bizimlə bölüşdü: “Zəfər Quliyev nadir siyasi politoloqlardan biri idi ki, özünəməxsus bir xətti var idi. Bu, onun savadından irəli gəlirdi. O, daim daxili narahatçılıq keçirirdi. Ətrafda gedən özbaşınalıqlara biganə qala bilmirdi. Soyuq başlı alim, isti ürəkli Azərbaycan vətəndaşı idi. Vaqif Səmədoğlu və Zəfər Quliyev itkiləri Azərbaycan üçün ağırdır. Sanki kitabxananın bir hissəsini itirmişik”.

**Mərhum politoloqla birlikdə çalışmış Fərhad Tapdıqoğlu onunla bağlı bunları dedi**: “Zəfər Quliyev yaddaşlarımızda yaxşı, yaşadığı zamanda Azərbaycanın gələcəyini düşünən bir insan kimi qalacaq. O, şən iş yoldaşı idi. İnsanlara yaxından kömək etməyi sevərdi. Gələcəyimizi azad görmək istəyirdi. Azərbaycan analitik dünyası gözəl bir insanı itirdi”.

Xatırladaq ki, ürək damarlarında tıxanıqlıqdan əziyyət çəkən Zəfər Quliyev Tiflisə müalicə üçün getmişdi. 63 yaşlı Zəfər Quliyev ölkənin tanınmış politoloqlarından və ictimai-siyasi xadimlərindən biri idi.

**Allah rəhmət eləsin!**

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 22 (6050) 31 yanvar 2015



# Qərbin "şıltaq uşağı"

Azər RƏŞİDOĞLU

**Qərb Azərbaycan iqtidarını "şıltaq uşaq" gözündə görməkdə davam edir. Müxalifətin gözləntilərinin əksinə olaraq, Qərb rəsmi Bakıya qarşı sanksiya tətbiq etmək barədə düşünmür. Belə davranış nüfuzlu Qərb təşkilatlarının da qıcığına səbəb olmaqdadır.**

Human Rights Watch beynəlxalq hüquq müdafiə təşkilatı dünyada insan hüquqlarının vəziyyəti haqqında illik hesabatını dərc edib. 656 səhifəlik hesabatda dünyanın 90 ölkəsində insan hüquqları sahəsindəki vəziyyət əksini tapıb və təhlil edilib. Azərbaycana həsr olunmuş hissədə qeyd edilir ki, 2014-cü ildə ölkədə hakimiyyət tənqidçilərinə qarşı repressiyalar güclənib, insan hüquqları sahəsində onsuz da pis olan vəziyyət isə daha da dərinləşib. 33 hüquq müdafiəçisi, siyasi və vətəndaş fəalı siyasi motivli ittihamlarla həbs edilib və mühakimə olunub. Bundan başqa, vətəndaş qruplarının və onların rəhbərlərinin bank hesabları dondurulub.

Təşkilatın rəyinə görə, repressiyalar və təqiblər ölkənin Avropa Şurası Nazirlər Kabinetində sədrliyi dövründə də davam edib. Avropa qurumları Azərbaycanı insan hüquqlarının pozulmasına görə tənqid etsələr də, Bakıya qarşı konkret sanksiyalar tətbiq edilməyib.

Göründüyü kimi, bu artıq Qərbin özünün etirafıdır - onlar üçün geosiyasət, enerjidaşıyıcıları maraqları, anti-Rusiya koalisiyasında yer almaq daha önəmlidir. Bölgədə sabitliyin qorunub saxlanılması demokratiya ilə bağlı tələblərdən daha öndə gəlir.

Bir sözlə, Qərb Rusiya ilə arasında yaşanan "soyuq müharibə"də yalnız öz maraqlarından çıxış edir. Demokratiyanın və insan haqlarının, söz azadlığının durumunu arxa plana keçirir. Böyük siyasi maraqlar olduğu zamanda demokratiya tələblərinin arxa plana keçirilməsi anlaşılandır. Lakin demokratiyanın qəbirə qoyulması eyni zamanda Qərb dəyərlərinin məhvini labüdləşdirir. Artıq ölkədə Qərbə inananların sayı durmadan azalır. Bu isə gec partlayan mina effektini yaradır.

Geniş mənada ABŞ və Rusiyanın daha zəif ölkələrə münasibətlərində ciddi bir fərq mövcud deyildi. Hər ikisi hərbi gücünə arxalanır. Lakin ABŞ demokratiya silahı ilə silahlandığından daha cəlbedici idi. Bu gün Qərb demokratiya tələblərini unudursa, deməli, öz siyasətini ruslaşdırır. Bu isə elə Qərbin özü üçün arzuolunmazdır.

Azərbaycanda seçki islahatının aparılması, müxalifətə efir vaxtının ayrılması, sərbəst toplaşmaq azadlığının təmin edilməsi, siyasi məhbusların azad olunması, iqtidarın rəqiblərinə qarşı inzibati üsullardan istifadəsinin qarşısının alınması istiqamətində ABŞ tələbləri artırır. Lakin bu tələblər bəyanat savaşından uzağa getmir.

Qərb üçün enerjidaşıyıcıları və təhlükəsizlik məsələləri prioritet təşkil edir. Bunlardan sonra insan haqları və demokratiya gəlir. Müşahidələr göstərir ki, Azərbaycanda demokratiyanın boğulmasının başlıca səbəbi böyük enerji layihələrinin ölkə üçün yaratdığı geosiyasi manevr imkanlarıdır. Qərb dövlətlərinin təzyiqini hiss edən Azərbaycan iqtidarı bunu İran və Rusiyanın təsiri ilə tarazlaşdıra bilir.

Neft və demokratik təsisatlar tərs mütənasib olaraq qalırlar. Siyasi təhlilçilərin sözlərinə görə, neftdən asılılıqla avtoritarizmin güclənməsi arasında birbaşa əlaqə mövcuddur.

Qərb üçün dəyərlər və maraqlar mövcuddur. Qərb demokratik dəyərlərin təminatı məsələsini nəzərdə tutanda bunu ilk növbədə öz vətəndaşlarına şamil edir.

Azərbaycanda bu dəyərlərin tətbiqi məsələsinə gələndə isə burada maraqlar tərəfi daha üstün gəlir.

**Amma eyni zamanda onu da nəzərə almaq lazımdır ki, Azərbaycan tərəfi demokratik dəyərlərdən özü imtina edir. Azərbaycandan bir çox layihələrdə tranzit ölkə kimi istifadə olunur. Bu da hakimiyyətə müəyyən dividentlər verməmiş deyil. Lakin uzun müddət demokratiyanı ayaqlamaq mümkün olmayacaq. Human Rights Watch-ın son bəyanatı da bunu deməyə əsas verir...**

# Bu gün Rəsulzadənin doğum günüdür

## Cümhuriyyətimizin banisi Novxanıda ölkə müxalifəti tərəfindən yad ediləcək

**Bu gün cümhuriyyətimizin qurucusu Məhəmməd Əmin Rəsulzadənin doğum günüdür. Görkəmli dövlət xadiminin 131 yaşı tamam olur. M.Rəsulzadə 1884-cü il yanvarın 31-də Bakının Novxanı kəndində anadan olub. 1902-ci ildə - on yeddi yaşında ikən M.Ə.Rəsulzadə "Müsəlman Gənclik Təşkilatını" yaradıb. Bu, XX əsrdə Azərbaycanda rus müstəmləkə üsul-idarəsinə qarşı gizli mübarizə aparan ilk siyasi təşkilat idi.**



1908-ci ilin axırında M.Ə.Rəsulzadə çar üsul-idarəsi tərəfindən həbs olunması təhlükəsi ilə əlaqədar olaraq Bakını tərk edərək İrana yollanır. 1911-ci ildə xaricdə olmasına baxmayaraq, onun bilavasitə rəhbərliyi ilə Müsavat Partiyası yaradılır. 1913-cü ildə Romanovlar sülaləsinin 300 illiyi ilə əlaqədar ümumi əfv elan olunur və M.Ə.Rəsulzadə vətənə qayıda bilir. 1918-ci ildə yaradılan Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurasının sədri olur. 1920-ci ildə Azərbaycan Demokratik Respublikası süquta uğradıqdan sonra Rəsulzadə ölkəni tərk etməyə məcbur olur. Bundan sonrakı fəaliyyətini xarici ölkələrdə mühacir həyatı yaşamaqla davam etdirir. Ankara Universitetinin tibb fakültəsinin klinikasında şəkər xəstəliyindən yatan Məhəmməd Əmin 1955-ci il martın 6-da gecə üç dəfə "Azərbaycan, Azərbaycan, Azərbaycan!" deyərək əbədiyyətə qovuşub.

Ölkə müxalifəti yubileylə bağlı M.Ə.Rəsulzadənin Novxanıdakı abidəsini ziyarət edəcək.

Müsavat Partiyası 31 yanvar saat 12:00-da ziyarət düzənləyəcək. Bununla bağlı sosial şəbəkələrdə çağırış eventi yaradılıb: "Müsavat Partiyası 31 yanvar saat 12:00-da Məhəmməd Əmin Rəzulzadənin doğum günü hər kəsi öndərin Novxanı kəndindəki abidəsi önündə anım tədbirinə dəvət edir".

Milli Şuranın ziyarətlə bağlı yaradılan eventdə deyilir: "Hər il olduğu kimi, bu il də Milli Şura Azərbaycan Xalq Cümhuriyyətinin banisi M.Ə.Rəsulzadənin doğum gününü onun doğulduğu kənddəki abidəsini ziyarət edərək qeyd edəcək. Anım yürüşünə hər kəs dəvətlidir. Ziyarət 12:00-da başlayır".

**Yubiley günü digər siyasi partiyaların da ziyarəti planlaşdırılıb. Anım ziyarətləri əsasən 12:00-da başlayacaq.**

❑ Cavanşir ABBASLI

# "Onları partiyadan çıxarmaq doğru olmazdı..."

## Başxanım Abbasova: "Qubad bəylə Ellada xanımın Divana dəvət edilməsi partiyadan xaric edilmək üçün deyil"

**"Qubad İbadoğlu və Ellada Məmmədlinin Müsavat partiyasından çıxarılacağı ilə bağlı fikirlər yanlışdır". Bunu Müsavat Partiyasının başqan müavini, Divan üzvü Osman Kazımov deyib. O bildirib ki, hər iki şəxs Divanın iclasına çağırılacaq və onlardan apardıqları fəaliyyətləri ilə bağlı açıqlama tələb olunacaq.**

O.Kazımov hesab edir ki, adıçəkilən hər iki şəxsin, əsasən də Qubad İbadoğlunun Divana dəvət edilməsinin vaxtı çoxdan çatıb: "Çünki Qubad İbadoğlunun tərəfdar dediyi şəxslər Müsavatı, onun rəhbərliyində olan şəxsləri təhqir etməklə, nüfuzdan salmağa cəhd göstərməklə məşğuldur. Onun özü isə buna göz yumur. Bir çox hallarda isə özü də bu kampaniyada iştirakçıya çevrilir. Qubad bəy Tofiq Yaqublunun müdafiə komitəsinin sədridir. Sonuncu dəfə nə vaxt onunla bağlı toplantı keçirib, hansı işi görüb? Ənvər Əhmədi nizamnamə pozuntusuna yol verdiyi üçün partiyadan xaric ediblər. Qubad bəy bununla bağlı dinləmə keçirmək istəyir, hələ üstəlik, o dinləməni 31 yanvara təyin edir. Müsavat Partiyası həmin gün Novxanıda mitinq keçirəcək. Bununla nə demək istəyir? Necə olur ki, Ənvər Əhmədlə bağlı dinləmə təşkil edir, Tofiq bəylə bağlı susur?"

Müsavat başqanlığına sabiq namizəd Tural Abbaslı isə APA-ya bildirib ki, partiyanı idarə edən ali orqanlardan biri kimi Divana hansısa üzvün dəvət edilməsi normal qəbul olunmalıdır. Amma indiki məqamda Səxavət Əlisoy nümunəsindən sonra başqanlığa sabiq namizəd Qubad İbadoğlu və Müsavat Qadınlar Birliyinin sədri Ellada Məmmədlinin Divana çağırılması belə fikir yaradır ki, onlar Divana xəbərdarlıq üçün çağırılıblar: "Bu, təbii ki, üzücüdür. Divan partiyanın idarə edilməsi ilə məşğul olmalıdır və parlament seçkilərinə 10 aydan da az vaxt qaldığı dövrdə partiyanın kursunu, xəttini müəyyənləşdirmək, real problemləri həll etmək əvəzinə, məhkəmə funksiyasını yerinə yetirir, partiyadaxili hansısa söhbətlərin həlli ilə məşğuldur. O halda sual yaranır ki, əgər Divan bu funksiyanı öz üzərinə götürürsə, partiyada Mərkəzi Nəzarət Təftiş Komissiyası nəyə lazımdır? Digər tərəfdən, partiya daxilində barışıq mühitinin yaradılması, partiyanı gücləndirilməsi əvəzinə, belə addımlar, hədə-qorxular onu daha da zəiflədir".

**T.Abbaslı Q.İbadoğlu və E.Məmmədlinin Divana çağırılmasını həm də güc nümayişi kimi qəbul edir:** "Sonra da durub deyəcəklər ki, biz Qubad İbadoğlu və Ellada Məmmədlini Divana dəvət etdik, başa saldıq, başa düşmədilər, indi isə partiyadan xaric edirik. Ona görə də onların Divana çağırılmasını məqsədəuyğun hesab etmirəm. Ən azı partiyanın rəhbəri Arif Hacılı Qubad İbadoğlu və Ellada Məmmədlini görüşə dəvət edə bilərdi".

**Divan üzvü Başxanım Abbasova** da Qubad İbadoğlu və Ellada Məmmədlinin Divanın iclasına dəvət edilməsinə və onların həmin iclasda partiyadan xaric ediləcəyi barədə fikirlərə münasibət bildirdi: "Müsavat ölkənin ən demokratik partiyasıdır. Bütün orqanlara seçkilərin keçirilməsi məhz bunun göstəricisidir. Müsavatın Divanı da seçki ilə formalaşır və Divan üzvləri mövqelərində sərbəstdirlər. Mən hesab edirəm ki, Qubad İbadoğlu və Ellada Məmmədli onların partiyadan çıxarılması üçün qərar verilməsinə əsas yaradan Nizamnamə pozuntusuna yol verməyiblər. Ona görə düşünürəm ki, onları partiyadan çıxarmaq düzgün olmazdı. İkincisi, onların partiyadan çıxarılması məsələsi Divanda müzakirə olunmayıb. Qubad bəylə Ellada xanımın Divanın iclasına dəvət olunması onları partiyadan xaric etmək üçün deyil. Ola bilər ki, hansısa Divan üzvləri bunu istəyirlər. Amma bu, heç də o demək deyil ki, bütün Divan üzvləri bunu arzulayır".

Divana bir aydır seçildiyini söyləyən B.Abbasova vurğuladı ki, indiyədək 4 iclasda iştirak edib və normal müzakirələr getdiyinin şahidi olub: "Divanda çox ciddi məsələlər müzakirə olunur. Onu da qeyd edim ki, iclasda müzakirə olunan məsələlər, verilən qərarlar ictimaiyyətə açıqlanır. Bu bir ayda Divanın normal fəaliyyətinin şahidi olmuşam. Divanda kiminsə arxasınca danışmaq, qeybət eləmək söhbəti yoxdur. Olsa belə, Divan üzvü kimi buna imkan verməzəm".

**Həmsöhbətimiz qurultaydan xeyli vaxt keçməsinə baxmayaraq hələ də partiyanın daxilində söz-söhbətin tam aradan qalxmadığını və bunun Müsavatın ümumi işinə zərər vurduğunu da dedi.**

❑ Etibar SEYİDAĞA

MÜSAVAT

YENİ MÜSAVAT
N 22 (6050) 31 yanvar 2015

# AŞPA-da nümayəndə heyətimizin tutduğu mövqe birmənalı qarşılanmır

**Avropa Şurası Parlament Assambleyasında (AŞPA) Azərbaycan məsələsinin də ciddi müzakirə mövzusuna çevrilməsi, xüsusilə də Rusiyanın işğalçılığına cavab olaraq bu ölkəyə qarşı sanksiyanın uzadılması son illərdə bu qurumla bağlı öləziyən diqqəti nisbətən artırıb.**

Rusiyaya qarşı sanksiyalarla bağlı səsvermədə Azərbaycan nümayəndə heyətinin tutduğu mövqe birmənalı qarşılanmayıb. Səsvermədə 40 nəfər qərarın əleyhinə, 160 nəfər isə lehinə səs verib. Azərbaycan da AŞPA-da Rusiyanın Ukraynaya qarşı təcavüzkarlığını qınayan qərarın əleyhinə səs verib. Məlumata görə, Ermənistan nümayəndə heyəti isə bitərəf qalıb, Türkiyədən 4 nəfər sənədin əleyhinə səs verib, 5 nəfər isə bitərəf qalıb. 6 nəfərdən ibarət Azərbaycan nümayəndə heyəti isə tam tərkibdə (Sahibə Qafarova, Sabir Hacıyev, Əli Hüseynli, Rəfael Hüseynov, Qənirə Paşayeva, Rövşən Rzayev) Rusyanın lehinə səs verib. Ermənistan nümayəndə heyətinin tam tərkibdə bitərəf qaldığı bildirilir. Ermənistandan heç kim qətnamənin əleyhinə səs verməyib.

Bəzi müşahidəçilər hesab edir ki, rəsmi Bakı BMT Baş Assambleyasında Ukraynanın ərazi bütövlüyünü dəstəkləməklə Rusiyada qıcıq yaradan addıma getdiyini nəzərə aldığı üçün bu dəfə “balans”ı qorumaq istəyib. Üstəlik, cəbhə xəttində, xüsusilə də Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində itkilərlə müşayiət olunan gərginliyin də dolayısı ilə AŞPA sessiyası ilə əlaqəsinin olduğu güman olunur. Ehtimallara görə, Rusiya cəbhədə iriçaplı silahları və mərmiləri işə salmaqla Bakıya Strasburqdakı səsvermədə “korrekt davranmaq tövsiyyəsi” vermək istəyib.



**İsa Qəmbər:** “Bunlar anlamırlar ki, belə prinsipsiz mövqe ilə Rusiyanı qazanmayacaqlar, amma Ukraynanı itirə bilərlər?”



**Siyavuş Novruzov:** “Bizim şərtimiz ondan ibarətdir ki, Rusiyaya sanksiya tətbiq etməmişdən öncə Ermənistana sanksiya tətbiq olunmalıdır”

**Milli Strateji Düşüncə Mərkəzinin rəhbəri İsa Qəmbər** azərbaycanlı deputat Rafael Hüseynovun AŞPA-da Rusiyanın Ukraynaya hücumunu qınayan qərarın əleyhinə səs verməsinə münasibət bildirib. Musavat.com-un məlumatına görə, İsa Qəmbər bu barədə öz facebook profilində status yazıb: “Azərbaycanın hakim rejimi öz deputatları vasitəsilə AŞPA-da Rusiyanın Ukraynaya qarşı təcavüzkarlığını qınayan qərarın əleyhinə səs verib. Bunlar anlamırlar ki, belə prinsipsiz mövqe ilə Rusiyanı qazanmayacaqlar, amma Ukraynanı itirə bilərlər?”

**Milli Məclisin vitse-spikeri Bahar Muradova** Modern.az saytına açıqlamasında məsələyə belə münasibət bildirib: “Azərbaycan Ukrayna dövlətinin ərazi bütövlüyünü ən yüksək səviyyədə dəstəkləyib. Ölkənin rəsmiləri hər uyğun məqamda da bunu vurğulayırlar. Azərbaycanın rəsmi mövqeyi belədir, hər hansı bir dövlətin ərazi bütövlüyünün pozulmasına qarşıyıq. Bunu açıq şəkildə bəyan edirik. Rusiyanın AŞPA-dakı səlahiyyət məsələsinə gəldikdə, biz ikili yanaşmanın, ikili standartların əleyhinə səs veririk. Xatırlayırsınızsa, ATƏT PA-nın ötən il Bakıda keçirilən yay sessiyasında da belə bir vəziyyət yaranmışdı. Krım məsələsi müzakirə olunanda fərqli yanaşmaya etiraz etdik. Bu günə qədər Azərbaycanın ərazi bütövlüyünü pozan, ərazilərimizi işğal altında saxlayan, 1 milyon insanı qaçqın-köçkünə çevirən Ermənistana sanksiya tətbiq edilmədiyi halda, uyğun bir məsələdə başqa bir ölkəyə tətbiq olunur. Biz bu cür yanaşmaya qarşı çıxırıq. Hesab edirik ki, belə qərar qəbul olunursa, bütün təşkilatlar ilk növbədə ölkələrin ərazi bütövlüyünü şübhə altına alan bir hərəkətə bundan əvvəl yol vermiş Ermənistana da sanksiya tətbiq etməlidirlər. Yəni bu cür selektiv yanaşmanın əleyhinəyik”. Vitse-spikerin sözlərinə görə, bu cür addımlar Ukraynanın ərazi bütövlüyünün əleyhinə olması anlamına gəlməməlidir.

Səsvermədə iştirak edən deputatlarımızla əlaqə saxlayıb onların mövqeyini öyrənmək istəsək də, bu, mümkün olmadı. Xatırladaq ki, Azərbaycan nümayəndə heyətinin üzvü millət vəkili Qənirə Paşayeva mövzu ilə bağlı fikirlərini bildirməklə bərabər Assambleyada yalan, yanlış, böhtan xarakterli çıxışlar edən Ermənistan nümayəndə heyətinə də sərt cavab verərək “dövlətiniz etnik təmizlə, soyqırım, terrorla məşğuldur” deyib və Assambleyanı bu addımlara qarşı sərt reaksiya göstərməyə və mübarizə aparmağa, sərt addımlar atmağa çağırıb.

**Politoloq Elxan Şahinoğlu** isə bu fikirdədir ki, Azərbaycan hakimiyyəti çətin vəziyyətdədir, bir tərəfdən haqlı olaraq Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir, o biri tərəfdən separatçılara dəstək verən Moskvanı qınaya bilmir: “Əlbəttə, Rusiya böyük ölkədir, təsir imkanları var, bu amilləri kənara atmıram. Ancaq Rusiyanın maraqları Azərbaycanın milli və təhlükəsizlik maraqlarından üstün deyil. AŞPA-dakı deputatlarımızdan heç olmasa biri və ya ikisi bitərəf qala bilərdi. Bununla aləm dağılmazdı, iki bitərəf səsə görə Rusiya da qıcıqlanmazdı. Yoxsa belə bir neqativ görüntü yarandı ki, azərbaycanlı deputatların tamamı Rusiyadan ehtiyat etdiklərinə görə belə səs verdilər və bu əvvəlcədən razılaşdırılıb”. **E.Şahinoğlu əmindir ki, Rusiyanın yerinə başqa ölkə olsaydı, deputatlarımız separatçılara dəstək verən, başqa ölkənin ərazisini işğal edən ölkənin lehinə səs verməzdilər:** “AŞPA-dakı deputatlarımız bu qərarlarıyla rəsmi Bakının elan etdiyi balaslandırılmış xarici siyasət prinsipinə də kölgə saldılar. Çünki, açıq-aşkar balansı Rusiyanın xeyrinə pozdular, halbuki söhbət Azərbaycan üçün həssas mövzudan - işğaldan, separatçılara dəstəkdən gedirdi. Təsəvvür edin ki, Dağlıq Qarabağ separatçılarına dəstək verdiyinə görə Ermənistan nümayəndə heyətinin səsvermə hüququndan məhrum edilməsi qərarı AŞPA-da səsverməyə çıxarılır. Və belə bir səsvermədə Ukraynanın nümayəndə heyəti bu qətnamənin əleyhinə səs verməklə İrəvana dəstək verir. Aydındır ki, bu rəsmi Bakının, Azərbaycan cəmiyyətinin xoşuna gəlməzdi. Necə ki, azərbaycanlı deputatların separatçılığa dəstək verən Rusiya lehinə səs verməsi Ukraynanın xoşuna gəlmədi. Görəsən rəsmi Bakının işğalçı Ermənistanın lehinə səs verən Ukraynaya reaksiyası necə olardı? Birdəfəlik anlamlıyıq ki, biz Ukraynanın ərazi bütövlüyünü bu dövlətə vurğunluğumuzdan dəstəkləmirik, bu ölkəni dəstəkləməklə, beynəlxalq təşkilatlarda Ukraynanın ərazi bütövlüyü lehinə səs verməklə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmiş oluruq. Bunun tərsi erməni separatçılarının xeyrinədir”.

**YAP-çı deputat Siyavuş Novruzov** isə “Yeni Müsavat”a “Azərbaycanı istəməyən qüvvələrin” hərəkətlərindən bəhs etdi: “Onlar öyrədilmiş deputatlar idi. Amma ümumilikdə Avropa Şurası Azərbaycanla bağlı hər hansı bir qətnamə, yaxud bəyanat qəbul olunmadı. Müzakirələr əsasən Rusiya ilə bağlı idi. Lakin bəzi şəxslər Azərbaycanla bağlı ora materiallar göndərmişdilər, istəyirdilər bizim ölkə də səsvermə hüququndan məhrum edilsin. Ancaq buna nail ola bilmədilər. Azərbaycan haqq yolundadır, Avropanın hər hansı bir ölkəsi ilə müqayisə apara bilərsiniz. Biz daim nəinki Azərbaycanda, bütün dünyada mətbuat azadlığının təmin olunmasında maraqlıyıq”.

**S.Novruzov Azərbaycanın Rusiyanın lehinə, Ermənistanın isə əleyhinə səs verməsi ətrafında şərhlərə də münasibət bildirdi:** “Ermənistanın bir neçə deputatı bitərəf qalıb, o birilər isə dəstəkləyib. Həmçinin biz Ukraynanın ərazi bütövlüyünü dəstəkləmişik. Bizim şərtimiz ondan ibarətdir ki, Rusiyaya sanksiya tətbiq etməmişdən öncə Ermənistana sanksiya tətbiq olunmalıdır. Çünki Ermənistan faktiki olaraq Azərbaycanın 20 faiz ərazisini işğal edib. Biz deyirik ki, siz nəyə görə ikili standartlarla yanaşıb Ermənistana bu sanksiyaları tətbiq etmirsiniz, amma Rusiyaya edirsiniz? Bizim bu məsələyə yanaşmamız belədir. Azərbaycan Ukraynanın ərazi bütövlüyünü dəstəkləyir və qeyd edir ki, bizim də ərazi bütövlüyümüz pozulub, odur ki, bizim ərazi bütövlüyümüz də təmin olunmalıdır”. **YAP-çı deputat güman etmir ki, son hadisə Bakı-Kiyev münasibətlərinə xələl gətirə bilər:** “Ermənistanın özü Ukraynanın ərazi bütövlüyünü dəstəkləmədi. Azərbaycan isə Ukraynanın ərazi bütövlüyünü Avropa Şurasında da, digər qurumlarda da dəstəkləyib. Bundan yuxarı nə ola bilər ki?”

❑ **Cavid TURAN**

# Metroda ticarət bərpa olunur, bəs qəzet satışı?



**Əflatun Amaşov:** “Nə vaxt bərpa edilsə, o zaman qəzet satışı ilə bağlı danışıq aparacağıq”



**Ələsgər Süleymanov:** “Biz böyük ümidlə gözləyirik ki, metroda qəzet satışına önəmli yerlərdən birini verəcəklər”

**Metro stansiyalarında ticarət köşklərinin yenidən bərpa ediləcəyi haqda informasiyalar yayılıb. Artıq “Koroğlu” stansiyasındakı keçiddə bir ticarət köşkü tikilib. O, yaxın günlərdə istifadəyə veriləcək. Maraqlıdır, ticarət bərpa ediləcəyi halda, qəzetlərin də metrolarda satışına icazə veriləcəkmi?**

**Mətbuat Şurasının sədri Əflatun Amaşov** qəzet yayımı ilə bağlı məsələni diqqətdə saxladıqlarını bildirdi: “Biz məsələni diqqətdə saxlayırıq. Ancaq hələ ki metropoliten rəhbərliyi ilə danışıq aparmamışıq. Çünki metrolarda ticarət başlamayıb. Əgər belə bir addım atılsa, bizim Mətbuat Yayımı Komissiyası Metropolitenin rəhbərliyi ilə əlaqə saxlayacaq. Belə bir məqamda qəzetin orada satılmasının mümkün olub-olmadığını müzakirə edəcəyik. Hələlik isə metroda ticarətin olacağını deyiblər, amma əməli addım atılmayıb. Nə vaxt dedikləri kimi gül, kitab satışı bərpa olacaq, o zaman da biz metrolarda qəzet satışı ilə bağlı danışıq aparacağıq”.

**“Yeni Müsavat” qəzetinin baş direktoru Ələsgər Süleymanov** qəzet yayımı ilə bağlı məsələnin çox acınacaqlı olduğunu dedi: “Şəhərdə yeni qoyulan köşklərə qəzet veririk. Amma bu çox azdır. Həm də onların bölüb satmaq ənənəsi yoxdur deyə, hesab edirəm ki, hazırkı zamanda o, "Qasid"in gördüyü işi yerinə yetirə bilmir. Bu köşkləri “Qasid”in köşklərinin yerinə qoysalar da “Qasid”i əvəz edə bilmir. Çünki “Qasid”in neçə illərdən bəri qəzet satmaq ənənəsi vardı və orada əsas üstünlüyü qəzetlərin satışı təşkil edirdi. Amma bu köşklərdə qəzetlər sanki ən axırıncı satış məhsulu kimi düzülür və onların satışı köşklərin elə də marağında deyil. Metrolara gəlincə isə ora bizim üçün ən strateji yerlərdən idi. Çünki hava şəraitindən asılı olmayaraq metroda hərəkət edən oxucular istədikləri vaxt giriş-çıxışda qəzet alıb ya evə aparırdılar, ya da metroda oxuyurdular. Metroda ticarətin, qəzet yayımının yığışdırılması mətbuata böyük zərbə oldu. İndi söhbət gedir ki, metronun yeni satış mərkəzləri açılıb. Əgər metroda ticarət obyektləri açılırsa, bu ticarət birinci qəzetlərin satışı ilə bağlı olmalıdır. O vaxt da bizə təklif edilmişdi ki, bu, gələcəkdə daha müasir formada təşkil olunacaq. Biz də buna ümidli idik ki, həqiqətən də həyata keçiriləcək. Yaxşı xəbərdi ki, artıq bu işə başlanılıb. Biz böyük ümidlə gözləyirik ki, metroda qəzet satışına önəmli yerlərdən birini verəcəklər. Bunun hesabına da qəzetlər acınacaqlı vəziyyətdən bir azda olsa çıxmış olacaqlar".

**Ə.Süleymanov əks təqdirdə öz özünə maliyyələşən qəzetlərin davamiyyətini saxlamağın mümkün olmayacağını bildirdi:** “Əgər metroda qəzet satışına icazə verməsələr, qəzetlər məhv olacaq. Düşünürəm ki, kiməsə bağlı olmayan və ya haradansa maliyyələşməyən qəzetlər sıradan çıxacaq. Hazırkı vəziyyət elədir ki, qəzet haradansa maliyyələşmirsə, öz satışı hesabına özünü dolandırmaq və davamiyyətini saxlamaq iqtidarında deyil. Biz saytımızda gedən digər saytların baner reklamları hesabını qəzetimizi çətinliklə də olsa saxlaya bilirik. Amma bütün qəzetlərdə bu imkan yoxdur. Həm də bu imkanların davamlılığı yoxdur. Yəni bu banerlər hər zaman olmaya bilər. Odur ki, biz bu addımı təqdir edirik ki, metroda ticarət bərpa olunur. Ən vacibi isə qəzetlərin burada satışıdır ki, biz bunu gözləyir və alqışlayırıq”.

❑ **Günel MANAFLI**

YENİ MÜSAVAT
N 22 (6050) 31 yanvar 2015



# Və o, getdi...

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Sonuncu görüşümüz 23 yanvarda olmuşdu. Əlimiz dara düşən kimi ilk aradığımız bu gözəl insana zəng edəndə "mən elə burda, Rauf bəyin otağındayam" deyib də ikicə dəqiqə keçməmiş otağımıza təşrif buyurmuşdu. Hər zamankı sadəlik, mehribanlıqla...**

Yanbayan əyləşib son durumdan danışmışdıq, prosesləri şərh eləmişdi. Sonra söhbət siqaretə necə qalib gəlməsindən düşmüşdü. Demişdi əvvəl günə 2-3 qutu çəkirdi, amma artıq 2-3 gilə ilə yola verir. Çox sevinmişdim, bəlkə elə özü qədər. Çox istəyirdik onu, birimizin xətrinə dəyməmişdi indiyənəcən. Biz onu tütünün zəhərindən qorumaq istəyirdik, nə bilək ki...

Çox qəribədir, Zəfər bəy son günə qədər ürəyinin dərinliklərində gəzdirdiyi ağrılardan söz açmamışdı. Hətta ən səmimi söhbətlərində belə. Redaksiyamızdakı anım mərasimində məlum oldu ki, yalnız son günlərdə ağrıları barədə dostlarına ürəyini açıbmış...

Mənim bu dəyərli insandan aldığım açıqlama və müsahibələrin sayı-hesabı yoxdur. Bircə dəfə təmkinini pozan görmədim onu, hər zaman saygılı münasibət gördüm. Özü bütün dünyada məlumatlı olsa da, hər görüşündə gülərək "nə var-nə yox" soruşardı. Yadımdadır, hələ "Turan"da işləyəndə o zaman Xaqani-33-dəki ofislərinə gedər hansısa hadisəni şərh etməsini istərdim. Mərhum qardaşı filosof Həsən bəy ofisdə olanda onu göstərirdi. Bu, həm də onun böyüyə hörməti idi...

Səmimi söhbətlərimizdən biri də illər öncə "Yeni Müsavat"ın yaxınlığındakı parkda olmuşdu. O zaman Zəfər bəy özünün, hətta yaşı 90-nı adlamış atasının da vaxtilə yoqa ilə məşğul olmasından danışaraq məni heyrətləndirmişdi. Bəzən "canının qədrini bilən adam" təsiri bağışlayırdı. Hərdən gərginliklərdən baş götürüb oğlu İlkinlə birgə dağlara üz tutanda, ya da "bir az istirahət etmək istəyirəm" deyib şərh və yazılarına fasilə verəndə. Amma demə gizlində bir proses gedirmiş, bu proses onu bizdən uzaqlaşdırırmış addım-addım.

Feysbuk səhifəsindəki sonuncu status və paylaşımlarına baxıram. Sonuncu müəllif yazısının rusca versiyasını paylaşıb. Dilimizə tərcümə variantı çıxanda isə artıq həyata vida etmişdi Zəfər bəy. Parlament seçkilərindən bəhs edən yazını. O, çox sevdiyi məmləkətində normal ab-havanın yaradılmasını ən çox istəyənlərdən idi. Bu yazı bəlkə elə onun cəmiyyətə bir vəsiyyətiydi...

"İ on uşyol ..." (Və o getdi..." Bu, üç kəlməni sanki özü haqqında yazıbmış. 26 yanvarda yazıb bu statusu. Dünyaca məşhur yunan musiqi əfsanəsi Demis Roussos haqqında...

Həmin gün qaranlıqla işığın vəhdətindən bəhs edən maraqlı bir fotonu da paylaşıb. Diqqət etsəniz görərsiniz ki, Zəfər bəy sosial şəbəkələrdə xeyli fotolarını paylaşıb. Elə "Musavat.com" da onların bir qismini yayıb. Bu fotoların bir çoxunda qayğısız görünməyə çalışırdı, yeni ilin, Novruzun gəlişini simvolizə edən aksessuarlarla, qarlı dağlarla, çaylarla, yollarla o qədər şəkilləri vardı ki. Özü demişkən, sivilizasiyadan uzaqda, bir bulaq başında oturub dincəlmək onunçün bütün dünyanın naz-nemətindən əfzəl idi.

Amma onun gözlərinin dərinliklərində qəm vardı, bunu yalnız diqqətlə baxanda görmək olardı. Bu, onun həyatının qüruba enməsinin əlamətiydi, yoxsa...Demək çətindir. Çünki Zəfər bəydə həyat eşqi çox güclüydü, 40 yaşında düşünürdüm ki, 63 yaşa çata bilməyəcəyəm" desə də...

62 yaşında həmkarım Aygün Muradxanlı Zəfər bəydən qarşıdakı 10 illə bağlı plan və arzularını soruşmuşdu. "Mən Şuşada olmuşam. Qarabağın gözəl təbiətini yenidən qayıdıb görmək istəyirəm..." demişdi. Təəssüf ki, Zəfər bəy Qarabağdakı zəfərimizi görmədi... Şuşanı da...Bir gün öncə vəfat edən digər böyük ziyalımız Vaqif Səmədoğlu da son günlərində "ölümdən qorxmuram, amma qorxuram Kəlbəcəri görmədən öləm" söyləmişdi. Bizim faciəmiz budur ki, kisəmizdən gedən böyük ziyalılarımız nakam köçürlər dünyadan - Qarabağ nisgili ilə. Yoxsa ölməyə nə var ki...

Hə, bir də ömrünün sonuna qədər fəal, gərəkli insan olmaq istəyirdi Zəfər bəy. Amma hələ bundan sonra bu millətə nə qədər gərək olacağını görəsən bilirdimi bu təvazökar insan? Elə biz jurnalistlərə də. Onun qədər soyuqqanlı təhlillər aparan siyasi analitiklərin sayı onsuz da çox az idi. Jurnalistikamızın böyük itkisidir həm də...

**Elçibəy dünyasını dəyişəndə "Peyğəmbər ömrü yaşadı" demişdik. Vətənini Əbülfəz bəy qədər sevən Zəfər bəy də eyni ömrü yaşadı, Elçibəy qədər, Peyğəmbərimiz (s.ə.s) qədər. Və o getdi...Yeri çox görünəcək... Məkanı cənnət olsun! Cənnətməkan yerlərin seyrinə çıxmağı çox sevərdi sağlığında...**

# İkinci Qarabağ müharibəsi hər an başlaya bilər

## Ermənistan hakimiyyəti diqqəti daxildən yayındırmaq üçün hər cür avantüraya gedə bilər; hərbi vertolyotun ardınca pilotsuz təyyarənin qurban verilməsi də bunu isbatlayır

**Cəbhədəki gərginlik davam edir. Son sutka ərzində atəşkəs rejimi ümumilikdə 79 dəfə pozulub. ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq yanvarın 29-da Qazax rayonunun Məzəm kəndi yaxınlığındakı qoşunların təmas xəttində keçirilən növbəti monitorinq zamanı isə erməni tərəfi yenə də təxribata cəhd göstərib.**

Həmçinin yanvarın 29-da saat 14.00 radələrində cəbhənin Ağdam rayonu istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində Ermənistan Silahlı Qüvvələrinə məxsus pilotsuz uçan aparat (PUA) Hərbi Hava Qüvvələrimiz tərəfindən məhv edilməsinə həmsədrlərdən də reaksiya gəlib. "Dağlıq Qarabağda, qoşunların təmas xəttində pilotsuz uçuş aparatlarından istifadə edilməsi təxribatdır". APA-nın məlumata görə, bunu ATƏT-in Minsk Qrupunun ABŞ-dan olan həmsədri Ceyms Uorlik özünün Tvitter səhifəsində yazıb. "Tərəflər gərginliyi azaltmalıdır", - deyə amerikalı diplomat vurğulayıb. Göründüyü kimi, amerikalı diplomat da ermənilərin həyasızlığına etiraz ifadə edib. Ermənistan hakimiyyəti diqqəti daxildəki vəziyyətdən yayındırmaq üçün çeşidli təxribatlara əl atır.

"Son günlər Qarabağda və Ermənistan-Azərbaycan sərhədində gərginlik çətin ki, irimiqyaslı hərbi əməliyyatlara keçsin". Bunu isə **deputat Rasim Musabəyov** "Turan"a müsahibəsində deyib: "Vaxtaşırı gərginliyin artması və azalması baş verir. Bu mənada fövqəladə heç nə yoxdur. Lakin düşünmürəm ki, yaxın vaxtlarda bu, ağır texnikanın tətbiqilə müharibənin yenidən başlanmasına gətirib çıxarsın. Ən azı bu səbəbdən ki, Ermənistan "erməni soyqırımı"nın "yubileyi"nə, Azərbaycan isə Avropa Oyunlarına hazırlaşır. Lakin bəllidir ki, müharibə sadəcə dayandırılıb, başa çatdırılmayıb. O həmçinin istisna etmir ki, ağlını itirmiş hansısa komandir ağır texnikadan istifadə edərək qanlı toqquşmalara səbəb olsun".

ATƏT-in Minsk Qrupu həmsədrlərinin son bəyanatını şərh edən R.Musabəyov deyib: "Prinsipial qiymətləndirmə olmadan bu bəyanatlar ona yönəlib ki, tərəflər atəşkəs rejiminə əməl etsinlər və danışıqları davam etdirsinlər. Əslində bu, məsuliyyətdən yayınmaqdan başqa bir şey deyil.

**R.Musabəyovun sözlərinə görə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etmək istəyir. Bunda kimin qalib olacağı məsələsinə gəlincə, ilk növbədə Rusiyanın hərbi əməliyyatlarda maraqlı olması istisna deyil. Dünya qiymətləri enir və Rusiya bundan narahatlıq keçirir. Neft bazarında təklif tələbi 1 mln. barel üstələyir. Elə Bakı-Ceyhan neft kəməri ilə bazara bu həcmdə neft daxil olur. Əgər müharibə başlayarsa, neft-qaz nəqli pozulacaq və Rusiyanın karbohidrogen ehtiyatlarına tələbat artacaq. Digər tərəfdən, istisna olunmur ki, Rusiya regiona ayırıcı qüvvələr qismində daxil olmaq üçün müharibədən istifadə etməyə çalışır.** "Güman edirəm ki, Azərbaycan rəhbərliyi və qərb tərəfdaşları bunu yaxşı bilirlər. Azərbaycan süni şəkildə bura hər hansı qüvvəni ayırıcı qüvvə kimi gətirmək niyyətində deyil. Lakin Azərbaycan öz ərazisini də heç kimə vermək niyyətində deyil", - R.Musabəyov vurğulayıb.



Rasim Musabəyov



Ərəstun Oruclu

"Cəmi bir neçə gün əvvəl Serj Sərkisyan Azərbaycanı hədələdi. Bundan sonra isə Ermənistanın pilotsuz təyyarəsi Azərbaycanın hava məkanına daxil olduğu üçün dərhal məhv edildi. İndi qarşı tərəf o ritorikasına uyğun hansısa addımlar atmalıdır". Bunu isə **Şərq-Qərb araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu** Ağdam səmasında erməni pilotsuz təyyarəsinin vurulması və bunun Ermənistan Müdafiə Nazirliyi tərəfindən çaşqın açıqlamalarla izahlanmasına münasibət bildirərkən deyib. Ə.Oruclu Sərkisyanın hazırda ən ağlasığmaz addımlara gedə biləcəyini də istisna etməyib: "Ermənistanın daxilində vəziyyət son dərəcə gərgindir və demək olar ki, sosial-iqtisadi tələblərlə bağlı ölkənin bütün şəhərlərində etiraz aksiyaları keçirilir. Bu gün Ermənistanda Rusiya tərəfindən mərkəzləşmiş vahid müxalifət var. Bu da faktiki olaraq indiki hakimiyyəti götürməyə hazırdır. Belə olan halda Sərkisyan hakimiyyəti ən ağlasığmaz addımlara belə getməyə hazırdır. Mənə elə gəlir ki, bu gün baş verənlərin əsl səbəbi budur. Yeni Sərkisyan hökuməti xarici düşmən faktorunu aktivləşdirməklə ölkədə öz mövqeyini gücləndirmək istəyir".

**Politoloq Vəfa Quluzadə** də "Yeni Müsavat"a savaş təhlükəsinin real olduğunu deyərək Azərbaycanı öz müttəfiqləri - Amerika, Avropa, Türkiyə ilə təmaslara başlamağa, cəbhədəki vəziyyəti onlarla birgə təhlil etməyə çağırıb. O hesab edir ki, müttəfiq ölkələr müharibəni gözləmədən Azərbaycana ciddi yardımlar göstərilməlidir.

Son günlər cəbhə xəttinin Gədəbəy istiqamətində yaranmış gərginlik nəticəsində ordumuz 3 şəhid verib. Gədəbəyin deputatı Rafiq Məmmədhəsənov rayonun hazırki vəziyyətindən haqda danışıb. O, Modern.az-a açıqlamasında cəbhənin Gədəbəy istiqamətində vəziyyətin sabitləşdiyini deyib: "Əhalidə və orduda ruh yüksəkliyi var. Erməni hiyləgər siyasətindən əl çəkmir, çalışırlar ki, vəziyyəti həmişə gərginlikdə saxlasın. Onlar hansı təxribata əl atsa da, ordumuz hər şeyə hazırdır. Nə orduda, nə də əhalidə qorxu var, vəziyyət normaldır, əhval-ruhiyyə çox yüksəkdir".

**Ekspertlərin ümumi fikri budur ki, Ermənistan hakimiyyəti diqqəti daxildən yayındırmaq üçün hər cür avantüraya gedə bilər. Hesab olunur ki, ötən ilin 12 noyabrında Ağdamda vurulan hərbi vertolyotun ardınca 29 yanvarda pilotsuz təyyarənin qurban verilməsi də bunu isbatlayır.**

❑ **Cavid TURAN**

# Girovların durumu pisləşib

**"Kəlbəcərdə girov düşən vətəndaşlarınmızın hüquqları kobud şəkildə pozulur. Onların vəziyyəti hazırda yaxşı deyil".**

ANS PRESS-in məlumatına görə, bunu AR Vəkillər Kollogiyası Rəyasət Heyətinin üzvü və "Azərbaycan Hüquq İslahatları Mərkəzi" İB-nin sədri Anar Bağırov bu gün keçirilən mətbuat konfransında deyib. O bildirib ki, Ermənilərin məqsədi tamam başqadır:

"Onlar iddia edirlər ki, guya soydaşlarımız sərhədləri pozurlar. Onda sual olunur ki, söhbət hansı sərhəddən gedir. Bütün dünya üzrə Azərbaycan sərhədləri tanınır. Qanunvericiləyə əsasən hər bir vətəndaş ölkədə sərbəst hərəkət etmək hüququna malikdir. Niyə görə, Ermənistan beynəlxaql hüquq normalarını pozur? Bizim soydaşlarımız diversant adlandırılır. Onlar bu sözün mənasını heç bilmirlər. Onların saxta məhkəməsində belə girovlara diversiya ittihamı irəli sürülməyib. Ermənilərin məqsədi tamam başqadır. Onlar bilir ki Azərbaycan vətəndaşları öz hüquqlarından istifadə edirlər".



Şahbaz Quliyev



Dilqəm Əsgərov

**A.Bağırov xatırladıb ki, Dilqəm Əsgərov dəfələrlə Qarabağda, öz kəndində olub və yaxınlarının qəbrini ziyarət edib.** "Azərbaycan Hüquq İslahatları Mərkəzi" İB-nin sədri qeyd edib ki, bu onun təbii haqqıdır: "Girovlarımızın müdafiəsi üçün ən etibarlı yol Beynəlxalq İnsan Hüquqları Məhkəməsidir. Biz BİHM-ə müraciət edərkən foto və yazılı materiallardan istifadə etmişik. Avropa Konvensiyasının bir sıra maddələrini kobud şəkildə pozur. Ermənilər öz qurduqları tələyə özləri düşüblər. Onların hüquqdan başa düşən hər bir şəxsi Ermənistanın səhv yolda olduğunu dərk edirlər. Beynəlxalq təşkilatlara müraciət etmək də bizim məqsədlərimizə uyğundur. Biz istəyirik ki, girov tutulan soydaşlarımız azadlığa buraxılsınlar".

YENİ MÜSAVAT
N 22 (6050) 31 yanvar 2015

# Ona borcluyuq..



## (Milli liderimizin ruhuna sayğılarla)

**“Ah Azərbaycan! Biz sənin haqqını tələb etmək deyil, təkcə adını söyləmək üçün belə nə qədər töhmətlərə məruz qaldıq..” (Məhəmməd Əmin Rəsulzadə)**

2015-ci ili tariximiz və tarixi şəxsiyyətlərimiz haqda şiddətli polemikalarla başladıq. İstər kütləvi informasiya vasitələrində, istərsə də sosial şəbəkələrdə bir-birini ittiham edən onlarla yazılar yazıldı, fikir mübadilələri aparıldı, ittihamlar da oldu. Hər biri də özünəməxsus dəyərləndirmələrlə.. Beləcə təqvim tarixinin 31 yanvarına gəlib çatdıq. Azərbaycan Xalq Cümhuriyyətinin banisi, Milli liderimiz, böyük ictimai və siyasi xadim Məhəmməd Əmin Rəsulzadənin doğum günü kimi xatirələrimizdən silinməyən bir günə. Bu günümüzdə də toplumun tarix şüurunda ilişib qalan çoxlu sualların cavabını əsərlərində aradığımız müdrik alim və mütəfəkkirin doğum gününə.

Bunu inkar etmək olmaz ki, tarixi faktlara vicdanla yanaşan hər hansı alim, ya mütəxəssis üçün Rəsulzadənin əsərləri istinad olunan mötəbər mənbələr sırasındadır. Hətta onun yüksək və təmənnasız vətən sevgisi bizə bu cəsarəti də verir ki, əsərləri bizlərin son istinad nöqtəmiz olsun. Yəqin ki, Məhəmməd Əminin əsərlərini oxuyan hər kəs bu hissləri yaşamışdır. Və bu əsərlərin əksəriyyətindəki yanaşmalar hələ də aktuallığını qoruyub saxlamaqdadır.

Öncə bu fikir ümmanında “Biz kimik?” sualına cavab axtaraq.

Rəsulzadə öz əsərlərində bu günümüzdə belə siyasi hakimiyyətin iradəsilə toplumda müəmmaya dönüşdürülmüş milli kimlik məsələsinə dəfələrlə müraciət etmişdi. O hələ 1920-ci ildə qələmə aldığı “Əsrimizin Siyavuşu” əsərində yazırdı ki, “Bir çox zaman azərbaycanlılar öz türklüklərini və türk soyundan gəldiklərini bilməyərək xalis iranlı kimi özlərini hiss etdilər. İranlı kimi düşünüb iranlı kimi yaşadılar.”

**3 il sonra Türkiyədə yazdığı “Azərbaycan Cumhuriyyəti” əsərində isə böyük mütəfəkkir üçün artıq bu sualın cavabı verilmişdi:** "Əvət! Rəhləsi üstündən enməyən Fizulisi, Koroğlu ilə bağrı yanıq Kərəmə ağlayan aşiqləri , bu aşiqlərin ürək dağlayan sazları ilə çobanların ruha sinən türküləri, cocuqların sevə-sevə oxuduqları maniləri, anaların yavrularını uyudurkən çağırdıqları ninniləri- xəvasının düşüncəsilə_ kəndisini iranlı bilən bu xəlqin bir zəlalətdə olduğunu göstərir- Xayır, deyil, sən Türksən !-diyordu."

Məhəmməd Əmin Rəsulzadə elə bu əsərindəcə “azərbaycanlı” identifikasiyasına daha korrekt şəkildə aydınlıq gətirir:

“Azərbaycanlılar milliyyət etibarılə türk, din etibarilə islam, mədəniyyəti-əsasiyyə etibarilə şərqlidirlər"

İstər tariximiz, istərsə də ədəbiyyatımızla bağlı Rəsulzadənin düşüncələrini ehtiva edən mənəvi irsi hər zaman yolumuza işıq tutmaqdadır. Son zamanlar tarixi şəxsiyyətlərimiz, o cümlədən Babək haqda sərgilənən yanaşmalarda da Rəsulzadəyə istinadların şahidi olduq. Öncə bu nüansı da unutmamalıyıq. Məhəmməd Əmin öz yazı və yanaşma üslubunda o qədər nəzakətlidir ki, hətta pərəstiş etmədiyi, tənqidi yanaşdığı şəxsiyyətlər haqda da əsərlərində olduqca hörmətlə davranır. Bütün yanaşmalarda aşkar görünür ki, onun tək qayəsi Azərbaycana xidmətdir. Rəsulzadə eyni zamanda əksər fikirlərində rus-bolşevik istilasının mahiyyətini açmağa çalışır və olaylara, eləcə də şəxsiyyətlərə dəyər verərkən də bu paradiqma özünü aşkar büruzə verir. O, “Çağdaş Azərbaycan Tarixi” əsərində Sovetlər Birliyində rus qəhrəmanlarının göylərə qaldırılmasına münasibət bildirərkən haqlı olaraq bu fikri ortaya atır: “Azərbaycanda vətən və milli istiqlal uğrunda unudulmaz mübarizəsi ilə tanınmış Dağıstanın böyük imamı Şamil ilə Gəncənin igid müdafiəçisi Cavaddan bəhs etmirlər. Bunun yerinə isə Azərbaycan tarixinin dərinlikləri aranaraq, oradan Babək kimi şəxsiyyətlər çıxarılıb ideallaşdırılır. Babək islamiyyətin düşməni idi. Bir islamiyyətin ki, indiki şəraitdə kommunizmə az əngəllər törətmir. Babək Azərbaycanı Şimala qarşı deyil, Cənuba qarşı qoyurdu. Bu halda o , Sovetlər Birliyinin ehtimal olunan düşməninə qarşı savaşın rəmzi ola bilər”. Tarixi şəxsiyyətlərimizin sovet ideologiyasının təbliğ olunmasında vasitəyə çevrildiyi bir dönəmdə Məhəmməd Əmin Rəsulzadənin yanaşması əlbəttə ki məntiqidir. Artıq iki onillikdən çoxdur ki tarixin qaranlığına gömülmüş Sovetlərin təqdim etdiyi Babək obrazı ilə Ərəb işğalına, eləcə də şiələrin 8-ci imamı Rzanın da mübarizə apardığı (həm də İmam Rzanı şəhid edən) Abbasilərə qarşı vətənini qorumaq üçün savaşan Babək arasında fərqi görərək olaya zaman prizmasından qiymət vermək elə də çətin olmaz. Hələ nəzərə alsaq ki, Rəsulzadənin öz zamanında kommunizmə qarşı əngəl kimi dəyərləndirdiyi islam sonralar siyasi arenada solun müttəfiqinə belə çevrilə bildi. 1979-cu il İslam İnqilabından sonrakı olaylar bunun aşkar nümunəsidir. Və bu günün İranının təqdim etdiyi islam da Rəsulzadənin düşüncəsindəki islamdan fərqlidir. Güney Azərbaycanda milli azadlıq mübarizəsinin süngüsünə çevrilən Babək də vaxtilə Sovetlərin ərsəyə gətirdiyi deyil, işğala, haqsızlığa qarşı savaşan, Qaradağın Kəleybər mahalında bir qalada 22 il Abbasilərə qarşı dirənən sərkərdədir. Məncə, Rəsulzadə yolunun davamçısı Əbülfəz Elçibəyin memarı olduğu Bütövlük Məfkurəsi də bu müddəaya haqq qazandırır.






Milli liderimizin əsərlərində özünəməxsus ədalətlilik və pozitivizmlə də üzləşirik. Bu acıdan əsərlərində Məhəmməd Əmini dəfələrlə hədəf alan xalq şairi Səməd Vurğunla bağlı düşüncələri diqqətələyiqdir. Rəsulzadə “Çağdaş Azərbaycan Ədəbiyyatı” adlı əsərində onun haqda belə yazır: “Səməd Vurğun Stalini idealizə edən əsərlər yanında bir də «Vaqif» adlı mənzum dram yazmışdır. «Vaqif» XVIII yüzillikdə yaşamış məşhur Azərbaycan şairi Molla Pənah Vaqifin həyat və əsərlərindən ilham almaqla yazılmışdır. Ümumi sovet vətənpərvərliyinə rəvac verən son rus əsərlərindən öyrənməklə Azərbaycan vətənpərvərliyinə rəvac verən bu pyes çağdaş Azərbaycan səhnəsinin ən uğurlu əsəri sayılır”. Bu günümüzdə cəmiyyətimizin yaşadığı “pozitiv və vicdanlı yanaşma” sindromunun aradan qaldırılmasında Rəsulzadənin bu yanaşması da örnək ola bilər.

Bütün həyatı boyu “Azərbaycan torpaqlarını qızdıran atəşi-müqəddəsi köksündə bəsləməyi” (ifadə M.Ə.Rəsulzadənindir) bacaran Rəsulzadənin düşüncələri hər zaman yolumuza işıq tutur. Bəs ona olan tükənməz sevginin əsas səbəbi nədir əcəba? Əslində biz ona borcluyuq və hər zaman ehtiyacımız var. Amma həmin suala cavabı da elə milli liderimizin öz yazısında tapa bilərik. Məhəmməd Əmin Rəsulzadə 1925-ci ildə İstanbulda çap olunan “İstiqlal məfkurəsi və gənclik” adlı əsərində yazırdı: “Rusiya idarəsindəki müslümanlara ”Türk" dedirtmək bu gün qazanılmış bir davadır. Yalnız Türk kəlməsi deyil, “Azərbaycan” adı da qazanılmışdır."

Ölməz liderimiz bizə yoxdan bir dövlət yaratmaqla, həm də millətimizin gerçək adını özünə qaytarmışdır. Elə isə sevilməyi, könüllərə hakim kəsilməyi də haqq edir. Çünki bir millət olaraq varlığımızı məhz ona və onun silahdaşlarına borcluyuq..

**❑ Rüfət Muradlı**
**Ümid Partiyası sədrinin İctimaiyyətlə Əlaqələr və Xaricdə yaşayan soydaşlarımızla iş üzrə müavini**

### Başsağlığı

**Ümid Partiyası Gəncə Şəhər Şöbəsinin sədri Salman İmanlının ailəsinə ağır itki üz verib. Onun qardaşı, tanınmış ziyalı və elm adamı Nəriman İmanlı 75 yaşında vəfat edib.**

**İmanlı Nəriman Məmməd oğlunun bir ziyalı, elm adamı kimi Azərbaycan elminə böyük töhfə vermiş şəxslərdən biridir. Çoxlu sayda monoqrafiyaların və elmi məqalələrin müəllifidir. 2004-ci ildən etibarən Ümid Partiyasının Gəncə Şəhər Şöbəsinin fəal üzvü olaraq Azərbaycanın demokratikləşməsi və ərazi bütövlüyü uğrunda prinsipial və ardıcıl mübarizə aparıb. Gözəl insan, etibarlı dost və əsil ziyalı kimi Ümid kollektivinin hörmətini qazanıb.**

**Millət vəkili, Ümid Partiyasının sədri İqbal Ağazadə və Partiyanın Rəyasət Heyəti Nəriman müəllimin vəfatından kədərləndiyini bildirir, Salman bəyə və mərhumun yaxınlarına dərin hüznlə baş sağlığı verir, səbir diləyir.**

**Allah rəhmət eləsin!**

**Bu səhifə Ümid Partiyası tərəfindən təqdim edilmişdir**

YENİ MÜSAVAT
N 22 (6050) 31 yanvar 2015



# Pensiyaçılar, niyə sevinmirsiniz?

Zamin HACI
zaminhaci@gmail.com

**Təzəlikcə pensiyaçılarımıza böyük müjdə verildi, onların aylıq pulu prezidentin sərəncamı ilə artırıldı. Bəs bu artım nə qədərdir? Orta hesabla 1 manat 2 qəpik! Sevinc hissimizin həddi-hüdudu yoxdur!**

Düzdür, mən hələ pensiyaya çıxmamışam, ancaq ölkəmizdə yaşayan qoca insanların qayğısına bu cür şiddətlə qalınması istər-istəməz mənim də qəlbimi fərəh hissi ilə doldurur. Fərəh hissi aşıb-daşır, bəzən aşağı mərtəbədəki qonşularımıza da pay çatır, onlar mənim fərəh hissimdə islanırlar. Şair demişkən:

"Nemətsə də gözəl şeir,
Şair olan qəm də yeyir".

Açığı, bu deyəsən ayrı yazıma aid sitat idi, hardan gəldi bura girdi, anlamıram. Qovuram da getmir. Üzrlü sayın, hörmətli oxucular.

Əslində bu məqamda Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri, görkəmli şairimiz Vaqif Bəhmənlinin Vaqif Səmədoğlunun ölümünə həsr etdiyi şeirdən bir parça olmalı idi:

***"Bir az ağı,
bir az bayatı,
bir az da
həyat anlatdı
salona toplaşanlara...***

***Yəni ki, özünü
kişi kimi apardı Vaqif Səmədoğlu -
Halbuki, mən
bundan nigaran idim.***

***Prezident sərəncamını,
yetmiş beş illik
yubiley təntənəsini hökumətin,
Mədəniyyət və Turizm Nazirliyinin
işi kimi apardı Vaqif Səmədoğlu -
Halbuki, mən
bundan nigaran idim".***

Gördüyünüz kimi, sənətkar ara yerdə öz nazirliyini də babat reklam etmişdir. Nə sözümüz ola bilər, 1983-cü ildən AYB üzvü olan şair hər şeyə qadirdir. Qəti nigaran olmaq lazım deyil. Sadəcə, belə şairlər imkan vermir ki, Elza Seyidcahan kimi gənc və perspektivli yazarlarımız, qəlbi Natəvan, Məhsəti, Mirvarid Dilbazi ruhu ilə döyünən şairələrimiz də bir gün görsünlər, öz sənət əsərləri ilə xalqımızı sevindirsinlər.

Pensiyaların 1 manat 2 qəpik artırılmasına dönək, gedəcək ayrı yerimiz də yoxdur.

Sözgəlişi, bu sərəncamlar veriləndə adətən belə ifadə olur: "pensiyaların baza hissəsi artırıldı". Bu baza hissəsi sözündən mənim çox xoşum gəlir, sanki pensiyaçı Məmmədhəsən əminin, Gülpəri nənənin hansısa bazası var. Neft bazası, qənd-çay bazası, nə bilim, lap hərbi bazasıE Üstəlik, bu bazaya 1 manat əlavə olunması bir qədər lətifə xarakteri daşıyır.

Qətiyyən! Özüm burda lətifə sözü yazdım, hökumətin tapşırığı idi. Vətəndaşların dövlətçiliyə sədaqətini yoxlayırdıq, kim sərəncama güldüsə hamısını tutacağıq. Bax, sən - qırağa baxma! Səni deyirəm! Elə bilirsən hökumət sərəncama güldüyünü görmədi? Axşam qara maşın gələcək. 1 manat 2 qəpiklik artım böyük rəqəmdir. Bununla çox şey eləmək olar.

Məsələn, 100 qram ət alıb kabab çəkmək mümkündür. Qarın doymağı önəmli deyil, təki iyi çıxsın. O iy bütün Qafqaza yayılsın, ermənilərin bağrı yarılsın! Halbuki, heç onların pensiyalarına 1 manat 2 qəpiklik artım olmayıbdır. Qarabağda yaşayan erməni vətəndaşlarımız var, separatçılıq üzündən hətta 25 ilə yaxındır pensiyalarının baza hissəsinə heç bir qəpik də artım edilmir. Əcəb olur.

1 manatla 5 dəfə avtobusa minmək mümkündür. Təxmini marşrut cıza bilərəm. Misal üçün, tutaq ki, sən pensiyaçısan, özün də Biləcəridə yaşayırsan. 20 qəpik verib 67 saylı avtobusla "Şamaxinka"ya gələ bilərsən. Orda düşüb 65 saylıya minirsən, bu səni gətirir bulvar yaxınlığına. Düşüb bulvarda xoş ovqatla gəzirsən, gərnəşirsən, mavi dalğalar qoynunda üzən "kakaşka"lara baxıb analoqu olmayan iqtisadi yüksəlişimizi pərvaz edən qağayıların tərənnümüE Nəsə, cümlənin ipi əldən getdi, burda dayanaq.

Sözümün canı odur ki, sonra eyni marşrutla evinə qayıdarsan, bu dünya turuna nə qədər xərcin çıxar? Cəmi 80 qəpik! Hətta 22 qəpik cibində qalır! Halbuki başqa ölkələrdə yaşayan pensiyaçılar Roma, Paris, Barselona turlarına çıxmaq üçün yüzlərlə dollar xərcləyir.

**Hökumətdən xahiş edirik gələn dəfə artım edəndə 2 qəpiyi özünə saxlasın. Bəlkə Ziya müəllimə-filana lazım olar. Yol çəkməyə. Çünki yol mədəniyyət deməkdir! Yol olmasa pensiyaçılar bulvara necə gedərlər?**



# ABŞ-Azərbaycan barışığının pərdəarxası

## "Washington Times" Azərbaycana xüsusi səhifə ayırdı; Hikmət Hacızadə: "Amerika istəmir ki, Azərbaycan Rusiya tərəfə keçsin; həm də bizim aeroportlar onlardan ötrü böyük əhəmiyyət kəsb edir..."

**ABŞ-Azərbaycan münasibətlərində ötən ilin sentyabrından gərginləşən münasibətlərdə yeni mərhələnin başlanması barədə müşahidələr özünü doğrultmaqdadır. Xüsusilə də prezident İlham Əliyevin Almaniya səfərindən sonra belə fikirlər var idi ki, əslində Azərbaycan dövlət başçısının Avropada yüksək səviyyədə qarşılanması ideyasında həmmüəlliflik ABŞ-a məxsusdur və bu yolla Qərb Bakını tədricən özünə yaxınlaşdırmaq strategiyası yürüdür.**

**Azərbaycanın rəsmi qəzetlərində ABŞ-ın "terroru dəstəkləyən dövlət", Obamanın isə "ikiüzlü" adlandırılmasından sonra dövlət katibi Kerrinin də sərt şəkildə tənqid olunması şəraitində ABŞ-dan verilən reaksiya ilgincdir. Amerikadakı bəzi vətəndaş cəmiyyəti nümayəndələrinin Azərbaycana qarşı sanksiya çağırışlarının ardınca Amerikanın nüfuzlu qəzetlərinin faktiki olaraq Azərbaycanın piar kampaniyasını aparması bir az da gözlənilməz oldu. Eyni zamanda ABŞ-ın bir neçə qəzeti Azərbaycanın təbliğinə yönələn, bəzən hətta Azərbaycanın rəsmi qəzetlərindəki tezislərə bənzər təbliğat yazıları ilə çıxış edib. Düzdür, burada Azərbaycan lobbisinin, Bakıdan gedən deputatların da rolunun olduğu haqda fikirlər var. Amma prosesin arxasında başqa mətləblərin dayandığı da iddialar arasındadır.**

Yanvarın 29-da isə "Washington Times"ın çap versiyası Azərbaycana xüsusi səhifə ayırıb: "Azərbaycan: müstəqilliyin bərpasından 25 il sonra, ABŞ-ın çiçəklənən müttəfiqi" adlanan bölümündəki məqalələrdə Azərbaycanın ABŞ üçün əhəmiyyəti, ona dəstəyin vacibliyi vurğulanıb. Yazılardan bəziləri konqresmenlərin imzasıyla dərc olunub.

**Politoloq Rasim Musabəyov** deyir ki, əslində burda təəccüblü bir şey yoxdur: "Azərbaycan heç kimdən ona ağıl öyrətməyi xahiş etmir. Biz Amerika ilə tərəfdaşlığı pozmamışıq. Əfqanıstana tranzit qalır, böyük enerji layihələrində əməkdaşlıq qalır. Lakin bəzi məsələlər var ki, indiki Amerika administrasiyası onların həllindən yayınır və bizə mühazirə oxuyur. Təbii ki, cavab kifayət qədər sərt olacaq".

**Politoloq Hikmət Hacızadə** də ortada barışıq məsələsinin olduğunu istisna etmir: "Hazırda Amerikanın başı başqa yerə qarışıb, ayrı cəbhədə vuruşmaq həvəsi yoxdur, ona görə də bu yolla Azərbaycanın "saqqızını oğurlamaq", könlünü almaq istəyiblər. Hətta öz ictimaiyyətinə başa salmaq istəyirlər ki, bizim Azərbaycandakı çoxsaylı pozuntulara qarşı heç nə etməməyimizin konkret səbəbləri var. Çünki Azərbaycanın bizimçün əhəmiyyəti nəzərə alırıq, onlar bizimçün vacibdir deyə, düşmənçilik etmirik. ABŞ-da insan haqlarını yüksək tutan, buna önəm verən böyük kəsim var. Bu mesajlar əsasən onlara yönəlib. Amerika prezidentinin yumşaq siyasətinin səbəblərini bu yolla onlara başa salmağa çalışırlar".

**H.Hacızadə deyir ki, neftin əhəmiyyətinin azalması Azərbaycanın öneminin azalması anlamına gəlməməlidir:** "Onsuz da Amerika Azərbaycandan neft almırdı. Azərbaycan Əfqanıstan, İran məsələləri ilə bağlı aparılan siyasət üçün ABŞ-a lazımdır. Amerikanın Əfqanıstana yolu burdan keçir, ordu, mütəxəssislər bu yolla təchiz olunur. Azərbaycanın aeroportlarından istifadə edilir. Üstəlik, yəqin istəmirlər ki, Azərbaycan Rusiya tərəfə keçsin. Barışığın arxasında həm də bu amil dayana bilər. Amma məncə, əsasən Azərbaycanın aeroportları Amerika üçün əhəmiyyət kəsb edir. Dəfələrlə bu barədə deyilib. Amerika da bəyan edib ki, bizim üç istiqamətdə əməkdaşlığımız var: hərbi-strateji, iqtisadi və demokratiya, insan haqları. Sonuncu ilə bağlı əməkdaşlıq alınmır, amma hərbi-strateji əməkdaşlıq və iqtisadi əməkdaşlıq alınır. Amerika qəzetləri də ictimaiyyətə bunu başa salmaq istəyir".

❑ Cavid TURAN

# Rusiya Qərb savaşı yeni mərhələdə

## Sanksiyalar sərtləşir, Putin isə geri çəkilmir

**Yanvarın 29-da Avropa İttifaqı Rusiyaya qarşı tətbiq olunmuş sanksiyaların müddətinin daha 6 ay uzadılması barədə qərar qəbul edib. Rusiya rəsmiləri isə Qərbin sanksiyaları nəticəsində ölkə iqtisadiyyatının məruz qaldığı itkilərin 200 milyard dollar həcmində olduğunu açıqlayıb.**

Bəs görəsən, Avropanın daha sərt sanksiyalar tətbiq etməsi nəticəsində Rusiya bundan hansı itkilər verəcək? Bu sanksiyalar Putini geri addım atmağa vadar edə biləcəkmi?

**"Yeni Müsavat"a açıqlamasında məsələyə münasibət bildirən politoloq Elxan Şahinoğlu bildirdi ki, Rusiya iddialarından geri çəkilmədikcə Qərbin sanksiyaları daha da sərtləşə bilər:** "Mən inanmıram ki, hansısa sanksiyalar Putini mövqeyindən yayındırsın. Qərbin Rusiyadan iki əsas tələbi var. Ukraynanın ərazi bütövlüyünü əməldə tanımaq, separatçılara canlı və texniki dəstək verməmək və Krımın işğalına son qoymaq. Putin isə bu iki siyasətini dəyişdirmir. Hətta Rusiya Ukraynadakı separatçılara dəstək verməkdən əl çəksə belə, Qərbin ikinci tələbi də Krımla bağlıdır. Putin isə nəinki Krımdan, Ukraynanın şərqindəki separatçılara dəstək verməkdən də imtina etmir. Bu isə Qərbi sanksiyaları daha da sərtləşdirməyə vadar edir. Qərb geri addım atmayacaq. Düşünürəm ki, Qərbin sanksiyaları getdikcə sərtləşəcək. Qərb görür ki, sanksiyalar işə yarayır, bu səbəbdən geri çəkilməyəcək. Rusiyada isə nə qədər ki, indiki hakimiyyət mövcuddur, geri addım atmayacaq. Çünki bu addım Putinin mövqeyinə zərbə vura bilər. Hər iki tərəfin öz mövqeyində qalacağını əminliklə demək olar. Rusiya elitası da təsdiqləyir ki, orada vəziyyət ağırlaşıb, iqtisadi böhran pik həddə çatıb, qiymətlər qalxıb, ictimaiyyətdə bir narazılıq var. Ancaq onu da deyək ki, bu narazılıq hələ ki, hakimiyyətə qarşı yönəlməyib. Hələ də Putinin reytinqi yüksəkdir. Buna baxmayaraq düşünürəm ki, sosial gərginlik davam edərsə, maaş və pensiyalar inflyasiyaya uğrayarsa bu insanların həyatına mənfi əsir edəcək və onların hakimiyyətə münasibəti də dəyişəcək. Ancaq bu bir qədər zaman alacaq".





Elxan Şahinoğlu

**Elxan Şahinoğlunun sözlərinə görə, Qərb bu münaqişənin uzanmasında və Rusiyaya qarşı sərt sanksiyaların tətbiqində maraqlı deyil:** "Rusiya geri addım atsa Qərb də sanksiyaları ləğv edəcək. Avropanın özünün çoxlu sayda problemləri var və Rusiya ilə gərginlikdə maraqlı deyil".

**Politoloq bu qarşıdurmanın daha çox Amerikanın dünyanın rəqibsiz lider dövlətinə çevrilmək maraqlarına xidmət etdiyini bildirdi:** "Rusiya nüvə dövlətidir. Amerika isə dünyanı ikinci bir güclü dövlətlə birləşdirmək istəmir, fövqəldövlət statusunu qorumaq istəyir. Putinin Amerika ilə rəqabət aparmağa istəyi varsa, Amerika da Rusiyanı zəiflətməklə bu rəqabəti aradan qaldırmağa çalışır və Putin hakimiyyətini yıxmağa can atır. İndiki halda Amerika bunu bacarır. Sanksiyalar və neftin ucuzlaşması Rusiyanı çökdürür. Rusiyanın ümumi itkiləri 200 milyard dollardır. Amerika Rusiyanı cəzalandırmaqda davam edir, Rusiya isə o gücdə deyil ki, Amerikanı cəzalandıra bilsin. Amerikanı çökdürə biləcək bir faktor yoxdur, neftdən və qazdan asılılığı yoxdur. Amerika istənilən dövlətlə yarışda birincidir".

**"Yeni Müsavat"a danışan Ərəstun Oruclu da Rusiyanın bu sanksiyalar səbəbindən daha böyük itkilər verəcəyini vurğuladı:** "Qərbin sanksiyaların müddətini uzatması Rusiya üçün çox ağır nəticələrə səbəb ola bilər. Rusiyaya tətbiq edilən sanksiyaların nəticələrinə diqqət etsək görərik ki, bu kifayət qədər effekt verib. Sanksiyaların uzadılmasının səbəbi Rusiyanın Qərbin tələblərinə nəinki məhəl qoymaması, hətta Ukrayna siyasətini bir qədər də sərtləşdirməsi oldu. Rusiyanın bu davranışı Qərbi sanksiyaları uzatmağa vadar edir. Şübhəsiz ki, Rusiya iqtisadiyyatında daha ciddi əngəllərə səbəb olacaq və bu perspektiv qaçılmazdır. Ancaq Rusiyanın yaxın zamanlarda Ukrayna iddialarından əl çəkməsi də gözlənilən deyil. Çünki Ukrayna məsələsi Rusiyanın daxilində hakimiyyət məsələsidir. Putin güzəştə getməyi məğlubiyyət kimi qəbul edir və düşünür ki, güzəştə getsə ölkə daxilində mövqelərini sürətlə itirəcək. Bu səbəbdən güzəştə getmir".

❑ Nərgiz LİFTİYEVA

YENİ MÜSAVAT
N 22 (6050) 31 yanvar 2015

# Ermənistan Qərbin anti-Rusiya xoruna qoşulur?

# İrəvandan Bakıya qiymətli "kart-blanş" - təhlil

AŞ PA-da Azərbaycan və Türkiyə Kremli dəstəklədiyi halda, Ermənistan nümayəndə heyəti müttəfiqinə qarşı sənədə etiraz etməyib; Moskva-Bakı-Ankara üçbucağının güclənməsi fonunda İrəvan daha bir "xaric səs" çıxarıb; Moskvaya qarşı de-marşla işğalçı ölkə Qərbə hansı mesajı verir?..




**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyası ən çox Rusiyaya qarşı sanksiyanın apreldək uzadılması ilə yadda qaldı. Artıq bəllidir ki, Azərbaycan nümayəndə heyətinin bütün üzvləri qətnamə layihəsinin əleyhinə səs veriblər. Üstəlik, nümayəndə heyətinin rəhbəri, deputat Səməd Seyidov öz çıxışında Rusiyanı qızğın şəkildə müdafiə də edib.**

Təbii ki, dəstək, rəsmi Bakının birbaşa rüsxəti ilə baş verib və Moskvaya növbəti, çox ciddi siyasi reverans sayıla bilər. Dərhal qeyd edək ki, AŞPA-da Türkiyə də Azərbaycan kimi Rusiyanı müdafiə edib: 10 deputatdan ikisi sənədin lehinə, dördü əleyhinə səs verib, ikisi isə bitərəf qalıb.

Ən maraqlısı isə bu fonda Rusiyanın satelliti sayılan Ermənistanın nümayəndə heyətinin 5 üzvündən 3-ünün Kremlə qarşı sanksiya əleyhinə çıxmamasıdır. Belə ki, səsvermə zamanı bitərəf qalan 11 AŞ PA deputatından 3-ü məhz Ermənistan nümayəndə heyətinin üzvü olub. Bunlar Ermine Naqdalyan, Naira Karapetyan və Mqer Şahgeldyandır.

Məsələnin maraqlı tərəfi həm də odur ki, Ermine Naqdalyan nümayəndə heyətinin rəhbəri olmaqla yanaşı, parlamentin vitse-spikeri və hakim Respublika Partiyasının üzvüdür. Həmçinin, Naira Karapetyan onun partiyadaşıdır. Deməli, anti-Rusiya demarşı bilavasitə hakim qüvvənin xeyir-duası ilə baş tutmuş kimi görünür. Belədirsə, o zaman məntiqli sual ortaya çıxır: Ermənistan bu davranışa görə Rusiyanı qəzəbinə gələ bilərmi?

Öncə onu vurğulayaq ki, son zamanlar Moskva-İrəvan münasibətlərində heç də isti olmayan dövr yaşanır, hətta Gümrüdəki məlum qətl olayından sonra bu ölkədə Rusiya bayrağının ayaqaltı edilməsi, prezident Putinin ünvanına təhqiramiz şüarlar səsləndirilməsi adi hala çevrilib. Qonşu ölkədə Rusiyanın həqiqətən ermənilərin təhlükəsizliyinin real qarantı olması ilə bağlı suallar ictimaiyyət tərəfindən bütün ciddiliyi ilə gündəmə gətirilib.

Rusiya tərəfdən də reaksiyalar özünü çox gözlətməyib. Doğrudur, xəbərdarlıqlar daha çox qeyri-rəsmi şəxslərin və Kremlə yaxın ekspertlərin (Duqin və s), siyasətçilərin dilindən səslənib, ancaq nə fərqi, hamıya aydındır ki, belə hədələrin əsl ünvanı haradır...

AŞPA-da ermənilərin Kreml əleyhinə demarşı həmçinin, Dağlıq Qarabağ konflikti zonasında vəziyyətin xeyli gərginləşdiyi və ermənilərin çoxsaylı canlı itki verdiyi dövrə təsadüf eləməsi ilə diqqət çəkir. Belə çıxır ki, Rusiyanın erməniləri Qarabağla yerində oturtmaq hədəsi də effektli olmayıb, erməni ictimai-siyasi fikrində Rusiya əleyhinə isteriyaya təsir göstərməyib.

Bu yerdə onu da yada salaq ki, Ermənistan ötən il Krımın Rusiya tərəfindən ilhaqına haqq qazandırıb və martın 27-də BMT Baş Məclisində Rusiya və daha 9 "izqoy" ölkə ilə birgə Ukraynanın ərazi bütövlüyünü dəstəkləyən sənədin əleyhinə çıxıb. Azərbaycan və Türkiyə isə əksinə - BMT sənədini müdafiə edib. Davos İqtisadi Forumunda Azərbaycan prezidenti İlham Əliyev bu mövqeyi növbəti dəfə təsdiqləyib...

Bu xüsusda qəribə ("yeni" də adlandırmaq olar) situasiya yaranır: qəribəlik isə ondadır ki, pis-yaxşı Qərbə kurs götürmüş Azərbaycan, eləcədə qardaş Türkiyə çətin vəziyyətində Rusiyanın yanında yer aldığı halda, Kremlin satelliti Ermənistan faktiki surətdə onun əleyhinə gedir, Qərbin anti-Rusiya xoruna qoşulur - özü də elə bir vaxtda ki, Putin hökumətinə qarşı ABŞ və Avropa Birliyi (AB) yeni və daha sərt sanksiyalar barədə ciddi şəkildə götür-qoy edirlər.

Hətta AB üzvü, ənənəvi (tarixən) Moskva loyallığı ilə seçilən Yunanıstanın yeni hökuməti Birliyin anti-Rusiya qərarlarını əngəlləməyə cəhd edirkən, forpost Ermənistan "xaric" oxuyur. Nonsensmi, Qərbə bazarlıq təklifimi, yoxsa? Bəlkə düşmən ölkə dünyadakı hansısa yeni proseslərdən duyuq düşüb və bu yöndə Azərbaycan və Türkiyədən daha çox məlumatlıdır?

Hər necə olmasa, Qərb-Rusiya soyuq savaşı fonunda sanki Güney Qafqaz və onun ətrafında dost-rəqiblərin təzədən təsnifləndirilməsi prosesi başlayıb. Yoxsa bunu necə anlayasan ki, AŞPA-da Azərbaycan nümayəndə heyətinin başçısı Səməd Seyidov Azərbaycan adına Rusiya haqda açıq şəkildə müdafiə nitqi söylədiyi halda, Ermənistan nümayəndə heyətinin rəhbəri Ermine Naqdalyan nəinki bunu etməyib, üstəgəl, səsvermə zamanı o və daha iki erməni deputatı (5 nəfərdən üçü!) anti-Rusiya sənədinə münasibətdə bitərəf qalıb. Belə situasiyalarda bitərəflik isə razılıq ("yaşıl işıq") jesti hesab edilir.

**Hər necə olmasa, İrəvan Bakıya qiymətli bir "kart-blanş" verib və ondan Moskva və Bakının necə faydalanacağı az maraq kəsb eləmir.**

❑ **Siyasət şöbəsi**

# İŞİD İraqın "damarını" vurdu

## Terror təşkilatı İraq neftinin 40 faizinin istehsal olunduğu Kərkükə və Misirdə Sina yarımadasına hücum etdi; döyüşlər yenidən şiddətləndi

**Son günlər ardıcıl hücumlar nəticəsində Kobanidən və İraqın Diyalə rayonundan sıxışdırılıb çıxarılan İŞİD qəflətən hücuma keçib. "əl-Cəzirə" telekanalının məlumatına görə, İŞİD yaraqlıları dünən gecə saatlarından başlayaraq İraqın Kərkük şəhərinə hücum edib.**

Məlumatda qeyd olunur ki, əvvəlcə şəhərin mərkəzində polis idarəsi və kürd partiyalarının qərargahının yerləşdiyi ərazidə bomba partlayıb, bunun ardınca isə şəhərə hücum başlayıb. Bunun ardınca isə bir qrup İŞİD yaraqlısı Qəsr Kərkük adlı otelə hücum edib. Kərkükün cənub-qərb hissəsindən hücuma keçən İŞİD qüvvələri ilə yerli könüllülər və kürd administrasiyasının peşmərgə silahlıları arasında qızğın döyüşlər başlayıb.

Hazırda şəhərin böyük bir qismində elektrik verilməsi dayanıb. Koalisiya aviasiyası isə müdafiəni dəstəkləmək məqsədilə aramsız olaraq İŞİD mövqelərini bombalayır. Qeyd edək ki, Kərkük İraqın əsas neft mərkəzlərindən hesab olunur, şəhərdə neft terminalları, şirkət binaları yerləşir.

Türkiyənin Anadolu Agentliyinin məlumatına görə isə ötən gecə İŞİD silahlıları Kərkükün 12 kilometrliyində yerləşən və peşmərgənin nəzarətində olan Tel əl-Vərd, Məktəb Xalid, Meryembeg və Molla Abdulla kəndlərinə hücum edib. Qızğın döyüşlərdən sonra Məktəb Xalid və Molla Abdulla kəndləri İŞİD-in əlinə keçib.



Gələn son məlumatlarda peşmərgələrin iki kəndi azad etmək üçün İŞİD qüvvələri ilə küçə döyüşləri başladıb.

Kəkrkük türkmən deputat Həsən Turan "əl-Cəzirə"yə bildirib ki, bir gün əvvəl ərazini bürüyən qalın dumandan istifadə edən İŞİD yaraqlıları Kərkükün cənub-qərbinə böyük bir hücum təşkil edib. Məhz qalın duman səbəbindən uzun müddət koalisiya qüvvələrinin hava hücumlarına mane olub. Bu səbəbdən də peşmərgə üzərinə güclü hücumlar olub. Deputat həmçinin oteli ələ keçirən İŞİD üzvlərinin müqavimət göstərdiyini bildirib. Kürd muxtariyyəti bölgəyə əlavə peşmərgə qüvvələri göndərib. Döyüşlər zamanı peşmərgə 1-ci briqadasının komandiri Şerko Fateh öldürülüb.

Qeyd edək ki, 1,4 milyon əhalisi olan Kərkük İraqın mühüm neft bölgələrindən biri hesab olunur. Eyni adlı vilayətin mərkəzi olan Kərkük şəhərində isə 900 min insan yaşayır. Kərkük həm də İraqda türkmən şəhəri hesab olunur. Bölgədə türkmənlər çox yaşasa da, kürd və ərəb qəbilələri də mövcuddur. Bir neçə gün əvvəl Kərkükün ərəb, kürd və türkmən qəbilələri İŞİD-ə qarşı birgə mübarizə aparmaqla bağlı müqavilə imzalamışdı.

2014-cü il iyunun 10-da İŞİD Mosulu ələ keçirdikdən sonra bölgədən çəkilən İraq ordusunun yerinə Kərkükün müdafiəsi kürd peşmərgələrində idi. Kərkükün bütün ətraf ərazilərində peşmərgə postları qurulub. Eyni zamanda İran hökuməti şəhərin qorunması üçün silah yardımı edib, yerli türkmən qəbilələrinin özünümüdafiə dəstələri yaradılıb.

Kərkük çoxmillətli şəhər olmaqla yanaşı İraq neftinin əsas istehsal mərkəzlərindən biridir. İraq neft istehsalının 40 faizi məhz Kərkükün payına düşür. İraqın təsdiqlənmiş neft ehtiyatlarının 6, potensial neft rezervinin isə 9 faizi Kərkükdə yerləşir. 1977-ci ildə istifadəyə verilən və illik 70 milyon ton neft ixrac edən Kərkük-Yumurtalıq boru kəməri də bu bölgədən başlayır. Hal-hazırda hər gün 120 min barel İraq nefti məhz bu kəmər vasitəsi ilə Ceyhana daşınır.

Ancaq cümə günü İŞİD-in hücumları yalnız İraqla yekunlaşmayıb. Misirin Sina yarımadasının şimalında Ariş bölgəsində hökumət qüvvələrini hədəfə alan 3 bomba partlayışı baş verib. Bunun ardınca isə hökumət qüvvələri ilə naməlum adamlar arasında atışma başlayıb. Terror hücumunun məsuliyyətini İŞİD-in Misirdə - Sina yarımadasındakı qolu hesab olunan "Ənsar Beyt əl-Maqdis" qruplaşması öz üzərinə götürüb. Qruplaşma ötən ilin noyabrından başlayaraq hərbi kazarmalar, postlar, elektrik stansiyaları və otelləri hədəfə alan hücumlar həyata keçirməyə başlayıb. Qruplaşma noyabrda İŞİD-ə beyət etdiyini elan edib.

Misir ordusunun sözçüsü Məhəmməd Samir yaydığı yazılı açıqlamada terror hücumuna "Müsəlman Qardaşlar" (İxvan əl-Muslimun) qruplaşmasını ittiham edib. Eyni zamanda o, terror hücumlarından sonra döyüşlərin davam etdiyini bildirib. Terror hücumları nəticəsində 29 nəfər ölüb.

**Qeyd edək ki, son dövrdə İraqda və Suriyada sıxışdırılan və dalbadal məğlubiyyət alan İŞİD-in qəfil hücuma keçməsi qruplaşmanın dağılması ilə bağlı iddialara cavab olaraq təşkil oluna bilər. Bir sıra müşahidəçilər terror təşkilatı daxilində böhran başladığı və fərarilərin, mərkəzi rəhbərliyə qarşı çıxışların artmasını qruplaşmanın laxlaması kimi dəyərləndirir. Görünür, İŞİD İraqda Kərkük kimi mühüm əhəmiyyətli şəhərə hücum etməklə hələ çox güclü olduğunu nümayiş etdirmək, eyni zamanda qorxu mühitini saxlamağa çalışır.**

❑ **KƏNAN**

YENİ MÜSAVAT
N 21 (6049) 31 yanvar 2015



# İnsanların özünə inamı niyə tükənib?

Hüseynbala SƏLİMOV

**50-60 yaşlı kişi ata-anasından şikayət edir, televiziyadan, daha doğrusu, televiziya tamaşaçılarından "imdad" diləyir... İndi bu, adi haldır, telekanallarda təsadüf edilən sosial verilişlərin əsas süjet xətlərindən biridir...**

Sizi bilmirəm, mənim onlara heç yazığım gəlmir. Hətta belələrinin sağlam, bəli, ruhi cəhətdən tamam sağlam olması məndə şübhə yaradır, çünki psixoloqlar və xüsusən də Erix Fromm qeyd edir ki, insan cəmiyyəti daim özünün təbiətlə vəhdətini, fərd isə ana ilə birgəliyini bərpa etməyə can atır. Bəzən bu şüuraltından çıxaraq patologiya formasını alır və artıq belələrinin ruhi sağlamlığı barədə ciddi danışmaq bir az çətin olur...

Hətta onlarda ciddi psixoloji kənaraçıxmalar olmasa da bunu ən azı infantilizm kimi qiymətləndirməmək qeyri-mümkündür... Müasir insanın kiçik və köməksiz varlığa çevrilməsi, onun kiçilməsi haqqında lap bu yaxınlarda yazmışdım. İndi o yazını bir də burada təkrar etmək niyyətində deyiləm...

Amma arada elə bir proses baş verir ki, onun sosial nəticələrinə göz yummaq elə də asan deyil - insanlar öz həyatları, öz yaxınlarının həyatları üçün məsuliyyət hissini itirir və bu hissin yaratdığı sosial yükü elə ilk fürsətdəcə çiyinlərindən atmaq istəyirlər...

Nədir bunun səbəbi? Biz tez-tez, yeri gəldi-gəlmədi, qəhrəmanlardan danışmağı sevirik. Amma qəhrəmanlara nə vaxt ehtiyac olur? Təbii ki, ən çox ekstremal vəziyyətlərdə... Deməli, ya biz müasir insanımızın kiçikliyini qəbul etməliyik, ya da yaşadığımız şəraitin ekstremal olduğunu...

İnsanların davranışında, mental düşüncəsində dəyişikliklər yüz illər ərzində baş verir. Ona görə də qəbul edə bilmərik ki, cəmi 24 il ərzində tamamilə yeni azərbaycanlı "tip"i yaranıb...

Deməli, qalır şərait... Mən bu sətirləri yazanda eşitdim ki, Türkiyədə 15 min metallurgiya işçisi tətil edir. Bu, mənə olduqca təəccüblü göründü, çünki 24 il ərzində bizə elə gəlib ki, tətil, ümumiyyətlə, kapitalizmlə uyuşmayan bir şeydir və bu haqda heç düşünməyə dəyməz. Azərbaycanlı işçi tətil edərsə, onu nə gözləyir? Birmənalı şəkildə demək olar ki, öz işini itirmək...

Bəli, bunun başqa yozumu yoxdur... Tətil edəni bu ölkədə başqa aqibət gözləmir. Hələ mən onu demirəm ki, insanlar işə tanışlıqla, tapşırıqla, hətta bəzi hallarda rüşvətlə düzəlirlər. Deməli, onlar hər şeyi irəlicədən nəzərə alırlar. Bəli, nəzərə alırlar ki, onların hüquqları pozula bilər, nəzərə alırlar ki, bir gün heç bir səbəb göstərilmədən maaşları azala bilər...

Ona görə də belə adamların heç ağlına da gəlmir ki, tətil etmək olar. Bu, necə deyərlər, məsələnin bir tərəfi.

Digər tərəfdən, televiziyalar tez-tez başqa ölkələrdəki etirazları göstərir. Bizə demək istəyirlər ki, baxın, başqa ölkələrdə vəziyyət pisdir...

Amma burada bir məsələ var. Azərbaycanda etiraz yoxdur. Amma bunun səbəbi o deyil ki, bu ölkədə problemlər yoxdur. Yox, problemlər var. Sadəcə, insanları etiraz etməyə qoymurlar...

Etirazların olmamasının səbəbi budur. Bu gün gəlib telekanallarda göz yaşı axıdan insanlar başqa bir şəraitdə əllərində etiraz şüarları, plakatları tuta bilərdilər. Amma onlara bu imkan verilmir...

Mən bunları niyə görə yazıram? Göstərmək istəyirəm ki, insanları kiçildən daha çox şəraitdir, nəinki ilkin psixoloji göstəricilər...

Bəli, şərait, avtoritar rejim insanları aciz məxluqlara çevirib. İnsan kiçilib və kiçilməkdə davam edir. Siyasi rejim insanın timsalında güclü fərd, şəxsiyyət görmək istəmir...

O ki qaldı şüarlara və pafoslu sözlərə, bunlar hamısı bir sabun köpüyüdür, heç kim onları ciddi qəbul etmir, hamı gözəl bilir ki, bu ölkədə yaşamaq üçün nələrdən keçmək lazımdır...

Hətta insanların danışıq tonu da dəyişir. O, yalvarış xarakteri alır. Keçmişdə hamı sözünə böyük mənsəb sahiblərinin tərifi ilə başlayardı. İndi də belə olur.

Qəsdən fikir verirəm ki, görüm, bu filan şair, filan artist çıxışında yaltaq ifadələr işlədəcəkmi? Görürəm ki, işlədir. Hətta bu yaltaqlıq kimi deyil, sözün əsl mənasında norma kimi, minnətdarlıq kimi qəbul olunur...

**Heç kim özünü öz uğurunun sahibi hesab etmir, hamı buna görə kimlərəsə minnətdarlıq edir. Halbuki hətta sovetlərin vaxtında belə deyildi. Mən o vaxt Moskvada bir həmyerlimizin doktorluq dissertasiyasının müdafiəsində iştirak etmişdim. O, sözünü belə qurtardı: "Mən birinci özümə minnətdar olmalıyam...". Təsəvvür edin, bunu o vaxtın azərbaycanlısı, sovet insanı deyirdi. İndi nə olub?.. İnsanların özünə inamı niyə sınıb? Niyə daha əvvəlki kimi insanlar başlarını dik tutmurlar? Niyə?..**

# Obamanın kralın yasında iştirakı birmənalı qarşılanmır

## "Səudiyyə kralı ABŞ-ın ayaq üstə durması, dünyanı idarə etməsi üçün müstəsna rol oynayır"

**ABŞ prezidenti Barak Obamanın Səudiyyə Ərəbistanının kralı Abdullah bin Əbdüləziz Al Səudun yas mərasimində iştirak etməsi dünyadakı demokratlar tərəfindən birmənalı qarşılanmayıb. Bəziləri hesab edir ki, Barak Obama bu addımı ilə ABŞ üçün neft amilinin demokratiyadan öndə olduğunu bir daha nümayiş etdirmiş oldu. Əks təqdirdə Amerika prezidenti demokratiyanın olmadığı ölkənin kralının yas mərasiminə şəxsən qatılmazdı.**



Azərbaycandakı demokratların bu barədə mövqeyi isə fərqlidir. **Azərbaycan Demokrat Partiyasının sədri Sərdar Cəlaloğlu** bu barədə danışarkən bildirdi ki, əslində ABŞ heç vaxt demokratiyanı özünün geopolitik maraqlarından önə qoymayıb. ABŞ-da maraqlar sıralanarkən demokratiya həmişə onun xarici siyasətində üçüncü yeri tutur: "Birinci yerdə ABŞ-ın geopolitik maraqlarıdır. Burda heç bir güzəşt yoxdur. Bundan ötrü hətta Amerika müharibələr də edir. İkincisi, ABŞ-ın iqtisadi maraqlarıdır. Vaşinqton bu maraqları təmin eləmək üçün müəyyən təzyiqlər eləsə də dil tapmağa çalışır. Üçüncüsü, demokratiyadır ki, bu marağı üçün ABŞ nə müharibə edir, nə də başqa cür təzyiq edir. Bu marağını dialoq yolu ilə, könüllülük əsasında tərəfdaşlarını yola gətirməklə həyata keçirməyə çalışır. Ona görə də Amerikanın öz maraqlarını təmin etməsində çox ciddi fərqliliklər var. Maraqların ierarxiyasına görə ABŞ Səudiyyə Ərəbistanının kralının vəfatına daha çox reaksiya verir, hətta gedib yasında iştirak edir. Çünki Səudiyyə Ərəbistanı ABŞ-ın qeyd etdiyimiz birinci və ikinci maraqlarına cavab verən ölkədir. Səudiyyə Ərəbistanı həm ərəb dünyasında geopolitikada Amerika siyasətinə bilavasitə xidmət eləyən ölkədir. Eyni zamanda bu ölkə dünyada neft nəhəngidir və onun neftinin istismarı bilavasitə Amerikanın əlindədir. Bu da dünyanın idarə edilməsində ABŞ-ın əlində ən ciddi iqtisadi rıçaqlardan biridir".

**ADP sədri hesab edir ki, ABŞ-ın qeyd olunan bu iki marağının təmin olunmasına görə Səudiyyə Ərəbistanının oradakı rejimin necə olması ABŞ üçün əhəmiyyət daşımır:** "Bu ölkə o qədər mühüm əhəmiyyətə malikdir ki, artıq onun demokratiyaya vurduğu ziyan, anti-demokratik davranışları ABŞ üçün çox kiçik, əhəmiyyətsiz görsənir. O ölkələr ki, ABŞ-ın ilk iki marağını təmin edir Vaşinqton həmin ölkələrin rejimləri ilə əməkdaşlıq etməyə, onların daxili işlərinə qarışmamağa çalışır, o ölkələrdə demokratiyanın vəziyyətinə önəm vermir. İndiki halda ABŞ-ın Səudiyyə Ərəbistanı ilə bağlı davranışları bununla bağlıdır. Səudiyyə Ərəbistanı Qərbin İslam dünyasını idarə etməsi üçün müstəsna xidməti olan bir dövlətdir. Belə bir müstəsna xidməti olan dövlətin rəhbəri vəfat edəndə ABŞ prezidentinin yasa getməsini bu baxımdan təəccüblə qarşılamaq lazım deyil. Səudiyyə Ərəbistanı Amerikanın həyati maraqlarına xidmət edən bir ölkədir və Səudiyyə kralları da ABŞ-ın ayaq üstə durması, dünyanı idarə etməsi üçün müstəsna rol oynayır".

❑ Etìbar SEYİDAĞA

# Dünya mətbuatında "tərifli" yazılar necə sifariş edilir?

## **Arif Əliyev:** "Bu sahə intellektual industriyanın ən gəlirli sahələrindən biridir"

**"Washington Times" qəzetinin 29 yanvar sayında Azərbaycandan bəhs edən toplu məqalələr dərc olunub. ABŞ-ın Azərbaycandakı səfirliyindən APA-ya verilən məlumata görə, "Müstəqilliyini bərpa etdikdən 25 il sonra çiçəklənən ABŞ müttəfiqi" başlıqlı məqalələr toplusunda yer almış çoxsaylı yazıların müəllifləri arasında ABŞ Nümayəndələr Palatasının üzvləri Rendi Veber və Robert Aderholt, Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov, soydaşımız Rob Sobhani, tanınmış tədqiqatçı Aleks Vatanka, eləcə də "Washington Times" qəzetinin redaksiya heyəti dayanır.**




Məqaləsində Azərbaycanın hansı səbəblərdən ABŞ üçün əhəmiyyət kəsb etdiyi sualına cavab gətirməyə çalışan R.Veber ölkəmizin mühüm geosiyasi mövqeyini önə çəkərək, Avropanın enerji təhlükəsizliyinə verdiyi töhfəni qeyd edir, hərbçilərimizin beynəlxalq sülhməramlı qüvvələrdə iştirakını təqdir edir və Əfqanıstanda ABŞ Silahlı Qüvvələri ilə əməkdaşlığımızı vurğulayır. Konqresmen Veber fəal şəkildə ABŞ-ın Azərbaycanla münasibətlərinin gücləndirilməsindən bəhs edir.

Azərbaycanı ABŞ-ın strateji müttəfiqi kimi xarakterizə edən Robert Aderholt öz növbəsində Avrasiya məkanında onun malik olduğu əhəmiyyəti şərtləndirən amilləri amerikalı oxuyucunun diqqətinə çatdırır. Azərbaycana səfərləri və o cümlədən Azərbaycan prezidenti İlham Əliyev ilə görüşünü xatırladan konqresmen inanır ki, daha sabit və firavan Azərbaycan müvafiq olaraq daha sabit və firavan Cənubi Qafqaz üçün ümid verir.

Azərbaycan barədə bu xüsusi buraxılışda həmçinin "Washington Times" qəzeti vasitəsilə ABŞ ictimaiyyətinə Azərbaycanın I Avropa Oyunları kimi tarixi hadisəyə ev sahibliyi edəcəyi barədə məlumat verilir, qarşıdan gələn bu Oyunların uğurla keçməsi üçün görülən fəaliyyətlərə istinad edilir və nəzərdə tutulan yarışlardan qısaca söz açılır.

Maraqlıdır ki, son illər Azərbaycan iqtidarı lobbiçilik fəaliyyəti ilə bağlı gördüyü işlərdə xarici mətbuat faktoruna xüsusi yer ayırır. Və dünyanın ən nüfuzlu nəşrləri də biznes maraqları çərçivəsində Azərbaycanla bağlı məqalələri dərc etdirməyə razılıq verir.

Medianın bu cür fəaliyyətlə məşğul olması peşə etikasına uyğundurmu? Məsrəflidirmi, Azərbaycan bununla bağlı ciddi paralarmı ödəyir?

"Yeni Nəsil" Jurnalistlər Birliyinin sədri Arif Əliyev bildirdi ki, dünyada lobbiçilik fəaliyyəti geniş yayılıb. Onun sözlərinə görə, bu sahə intellektual industriyanın ən gəlirli sahələrindən biridir və PR fəaliyyəti ilə uzlaşır: "Orda qeyri-qanuni istifadə hallarına geniş yer verilir. Bütün dövlətlər bunu tənzimləməyə çalışır. Onun təsir formasına gəlincə, cəmiyyətin intellektual qismi lobbiçilik fəaliyyəti ilə bağlı yazıları ayırır və bunun xüsusi təsiri olmur. Bəzən isə ümumiyyətlə, əks effekt verir. Amma geniş ictimaiyyətdə lobbiçiliyn qoyduğu irs güclüdür və bir sıra hallarda da öz məqsədinə çatır. Biz buna intellektual təbəqə olduğumuz üçün həlim baxırıq. Lobbiçilik ciddi sahədir. Ciddi məhdudiyyətlərin qoyulmasına və aradan qaldırılması hər zaman tənzimlənməlidir".

**A.Əliyev həmçinin onu da dedi ki, lobbiçilik fəaliyyəti çox bahalıdır. Onun sözlərinə görə, lobbiçilik mərkəzləri də çox professional mərkəzlərdir:** "Lobbiçilik vasitələri deyərkən mətbuat, parlament, deputatlar, müxtəlif dövlət orqanları nəzərdə tutulur ki, onlar da çox bahalı strukturlardır. Bu qanunlarda lobbiçiliklə məşğul ola bilən dairələr müəyyənləşdirilir. İkincisi, şəffaflıq tələbləri də var. Şəffaflıqla bağlı tələblər bir az çətin nəzarət olunan tələblərdir. Amma hər halda qanunun tələbləri var. Buna çalışan təşkilatlar da var. Azərbaycan parlamentində lobbiçiliklə məşğul olmaqla Almaniya parlamentində bununla məşğul olmaq arasında fərq var. Çünki ölkələrdəki ictimai rəyin çəkisi fərqlənir. İctimai rəyin güclü olması dövlət strukturlarının qərar qəbul etmə səlahiyyətlərindən asılıdır".

❑ Sevìnc TELMANQIZI

YENİ MÜSAVAT
N 22 (6050) 31 yanvar 2015

# Miqrasiya Xidmətində korrupsiya əməliyyatları - iddialar

## Qurumun rəhbəri Firudin Nəbiyevin vətəndaşları necə incitməsi, rəhbərlik etdiyi sahədə yaratdığı korrupsiya labirinti barədə şikayət var; DMX rəisinin biznes şəbəkəsi və avtomobil kolleksiyasının siyahısı bu yazıda

**Dövlət Miqrasiya Xidmətində baş verən qanunsuzluqlarla bağlı redaksiyamıza məlumatlar daxil olub. DMX-də başına gələn hadisələr və bundan sonra həmin qurumda baş verənləri araşdırdığını deyən adının açıqlanmasını istəməyən vətəndaş qeyd edir ki, Dövlət Miqrasiya Xidməti qanunsuz olaraq "OV konsaltİng" MMC adlı şirkət vasitəsi ilə vətəndaşlardan pul yığır:**

"DMX-ya pasport üçün müraciət edən şəxslərdən tələb olunur ki, həmin şirkətdən xüsusi formalı blank alıb onu doldursunlar. Həmin blank 3 manata satılır. Amma heç kim izah etmir və soruşanlara deyilmir ki, nə üçün bu blankı DMX özü vermir, onu gedib bir MMC-dən almalıyıq. Araşdırdım, bəlli oldu ki, bu şirkətin arxasında DMX-nin rəisi Firudin Nəbiyev dayanır, ona yaxın adamlar işlədir və sənəd təqdim etməyə gələnləri oradan blank almağa məcbur edirlər. Qanunda isə qeydiyyat üçün Miqrasiya Xidmətinə müraciət edərkən heç bir dövlət rüsumu tələb olunmadığı göstərilib. Amma DMX-də qanunlar yox, Firudin Nəbiyevin "siyasəti" keçərlidir".

**Mənbə qeyd etdi ki, DMX-yə qeydiyyatdan keçməyə gələnləri ən müxtəlif bəhanələrlə "soyurlar":** "Son vaxtlar Rusiyadakı böhrana, Ukraynadakı hadisələrə görə 10 minlərlə soydaşımız vətənə dönməyə başlayıb. Onların bir xeylisi həmin ölkələrin vətəndaşıdır. Hazırda gün ərzində Miqrasiya Xidmətinə 2500-3000 arası müraciət daxil olur. Hər bir müraciət edəndən 3-5 manat yığılanda, il ərzində orta hesabla 5 milyon manata yaxın qanunsuz pul toplanır. Bundan başqa, soydaşlarımız vətənə gələndə sənədlərinə baxırlar, görürlər ki, qeydiyyat müddətinin bitməsinə 1 gün qalıb, onu bir bəhanə ilə həmin gün qeydiyyata almırlar. Sabah gələndə isə 300 manat cərimələyirlər. Çox vaxt da cərimə adı altında alınan pulu rəsmiləşdirmirlər. Hazırda DMX-də sanki bazar açılıb. Maraqlısı odur ki, Azərbaycan Respublikasının heç bir qanunlarında hətta qeydiyyatın gecikməsi real məsələ olsa belə, bu məbləğə cəriməyə rast gəlmək mümkün deyil. Bundan başqa, Miqrasiya Xidmətinə müraciət edən hər bir əcnəbidən həm mərkəzi, həm də regional idarələrdə *(Xaçmaz, Şirvan, Ağsu, Yevlax, Gəncə, Bakı)* sənədlərini təqdim edəndə 5 manat tələb edirlər. Soruşursan bu nə üçün alınır, cavab verən yoxdur. Xidmət rəhbərliyi qanunvericilikdə nəzərdə tutulmayan formada, xüsusi otaqlarda əcnəbilərdən sənəd qəbul edir, daha dəqiqi pul alır. Maraqlısı odur ki, həmin pulyığanların çoxu rəsmi işçilər deyil. Onlar sənədləri və pulları makler kimi toplayıb aparıb səlahiyyətli və rütbəli əməkdaşlara təhvil verirlər. Lənkəran regional idarədə isə açıq bazardır. Pulyığma prosesini şəxsən idarə rəisi Səmədağa Abdullayev özü həyata keçirir.



Vətəndaşlara yaradılan digər problem isə odur ki, Azərbaycan vətəndaşı olmaq üçün müraciət edən şəxsdən hətta həmin adamın vətəndaşlığa qəbul edilməsi barədə prezidentin təsdiqi gələndən sonra müxtəlif bəhanələrlə pul alırlar. Məsələn, vətəndaşdan tələb edilir ki, gedib əvvəl vətəndaşı olduğu ölkənin səfirliyindən o dövlətin vətəndaşlığından imtina etməsi barədə sənəd alıb gətirsin. Bu isə çox müşkül məsələdir və qanunda nəzərdə tutulmur. Bunu edə bilməyənlərdən isə 500-1000 manat arası rüşvət alıb şəxsiyyət vəsiqəsi alması üçün sənədi verirlər. O, yığdığı vəsaitlər hesabına özünə geniş biznes şəbəkəsi qurub".

**Mənbə iddia edir ki, aşağıdakı obyektlər DMX rəsinə məxsusdur:**

*- "FASHİON Club" qadın gözəllik salonu - Bakı şəhəri, Teymur Əliyev küçəsi*

*- Fermer təsərrüfatı - 500 hektar ərazidə - Xaçmaz rayonu, Xudat şəhərində*

*- Kafe, restoran, ərzaq mağazaları, pullu avtodayanacaq - Yalama keçid məntəqəsinin qarşısında*

*- Novxanıda dəniz kənarında restoran*

*- "Orxan" istirahət mərkəzi - Nabranda*

*- "ATA Market"- Binəqədi qəsəbəsində*

*- "Elay" şadlıq evi - Bayıl qəsəbəsində (DMX idarə rəisi İntiqam Məmmədovla şərikli)*

*- Masazır qəsəbəsində yeni tikilən bir neçə bina*

*- Yanacaq doldurma məntəqəsi - Bakı-Rusiya magistral yolunda*

*- Hotel - Bakı şəhəri, Teymur Əliyev küçəsində*

*- Şəxsi avtomobillər kolleksiyası*

*- "Mersedes Galendwagen" - nömrə nişanı - 002*

*- "Mersedes S Klass" - nömrə nişanı - 002*

*- "Range Rover Discovery" - nömrə nişanı -011*

*- "Lexus 570" - nömrə nişanı - 009.*

**Yazıda adları keçən şəxslərin də mövqeyini dərc etməyə hazırıq.**

❑ T.ƏHMƏDLİ

# "Onun söylədikləri inandırıcı deyil..."

## Həbsxanada ana olan məhbus Lamiyə Quliyevanın dediklərinə inanan azdır, hüquq müdafiəçiləri onunla görüşə hazırlaşır

**Həbsdə ana olan məhbus qadın Lamiyə Quliyeva olayı hələ də gündəmdədir. Son olaraq məhbus qadın necə ana olması barədə vəkili vasitəsilə mediaya müraciət edib. L.Quliyeva bildirib ki, Apelyasiya Məhkəməsi ilə bağlı Bakı İstintaq Təcridxanasında saxlanılarkən orada istintaqı aparılan, həbsdə saxlanılan bir şəxslə öz istəyilə görüşüb. Məhbus qadın həmin şəxsin uşağının atası olduğunu bildirib:**

"Mən Təhqiqat Şöbəsinin əməkdaşına bu şəxs barədə yazdığım ifadədə bildirmişəm, adını və soyadını da yazmışam. DNT test nümunələrini də təqdim etmişəm. İndi mən məhbəsdə analıq ömrümü yaşayıram. Məhbəsdə analıq amansız taledir. Bundan sonra bu taleyi uşaqla yaşamalıyam. Xahiş edirəm, bütün bunlara görə məni qınamayın və mühakimə etməyin".

Açıqlama yayılan gündən isə şübhələr azalmaq əvəzinə daha da artıb. Çünki verilən açıqlama ilə türmə reallıqları üst-üstə düşmür. Amma bu məqamda ölkə ictimaiyyətinin, xüsusən də qadın hüquq müdafiəçiləri, deputatların məsələyə reaksiyası arzu edilən səviyyədə deyil. Belə ki, hələ də onların səviyyəsində L.Quliyeva ziyarət olunmayıb, bu məsələnin araşdırılması aparılmayıb. Bu yaxınlarda türmədən azad edilmiş "Xural" qəzetinin baş redaktoru Əvəz Zeynallı da bizə müsahibəsində ölkə ictimaiyyətini bu məsələyə həssaslıq göstərməyə çalışmış, "Lamiyə Quliyeva məsələsinə diqqət ayırmalıyıq" demişdi.

**Dilarə Əliyeva adına Qadın Hüquqlarını Müdafiə Cəmiyyətinin sədri Novella Cəfəroğlu** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, onlar da L.Quliyevanın vəziyyəti ilə maraqlanırlar: "Hara lazımdırsa demişik. Özümüz də Lamiyə ilə görüşə hazırlaşırıq. Bu xanım etiraf edir ki, öz istəyi ilə münasibətdə olub, sonra da uşaq dünyaya gətirib. Özü deyir ki, mənə heç kim zorakılıq etməyib. Amma buna baxmayaraq biz bu məsələ ilə bağlı müvafiq qurumlara məktub yazmışıq ki, qorunan müəssisədə bir qadına necə təcavüz oluna bilər və ya o, istədiyi şəxslə bu cür münasibətə girə bilər. Bu da hüquq çərçivəsində araşdırılacaq".



Müsahibimizin sözlərinə görə, L.Quliyevanın öz dilindən ərizə olmasa bunun əksini iddia etmək olmaz. N.Cəfəroğlu indiki halda ancaq L.Quliyevanın hüquqlarını müdafiə edə biləcəklərini dedi: "Amma məhbus həyatında belə hal ola bilməz, çünki qanun buna icazə vermir. Biz gələn həftə Lamiyənin yanına getməyi düşünürük".

**Hüquqşünas Müzəffər Baxış** da hesab edir ki, L.Quliyevanın uşağının atası ilə bağlı dedikləri inandırıcı deyil. Onun sözlərinə görə, əgər qadın məhbusun dedikləri həqiqətdirsə, bu halda onun dediyi hadisə istintaq təcridxanasında çalışan işçilərin səhlənkarlığı ya da qəsdən şərait yaratması ucbatından baş verib: "O da bir ehtimaldır ki, hər hansı bir işçini ya rüşvət, ya da hansısa yolla ələ alıblar. Onlar eyni otaqda saxlanılmırlar ki, aralarında əlaqə mümkün olsun. Kənarda oturmaqla bunu araşdırmaq imkanımız yoxdur. Bu hadisənin baş verəsi zamanı orda çalışan vəzifəli şəxslər qanun qarşısında cavab verməlidir".

Ədliyyə Nazirliyi Pentensionar Xidmətin mətbuat xidmətindən isə bu mövzu ilə bağlı ünvanladığımız suallara "məhkum Lamiyə Quliyevanın övlad dünyaya gətirməsi ilə bağlı Penitensiar xidmətin rəsmi açıqlaması olub. Bir daha nəzərinizə çatdırırıq ki, bununla bağlı müvafiq araşdırma aparılır" cavabı verildi.

**Qeyd edək ki, 1987-ci il təvəllüdlü Lamiyə Quliyeva 2003-cü ildə həbs edilib. Cinayət Məcəlləsinin 120-ci (qəsdən adam öldürmə) maddəsinə əsasən təqsirləndirilən L.Quliyeva və nişanlısı Vüqar Əliyev 2003-cü ilin mayında Şəmkir rayonunun sabiq icra başçısı Aslan Aslanovun oğlu Ruslanı qətlə yetirməkdə təqsirləndirilirlər. Respublika Ağır Cinayətlərə Dair İşlər üzrə Məhkəmənin hökmü ilə Vüqar Əliyev ömürlük, Lamiyə Quliyeva isə 10 il müddətinə azadlıqdan məhrum edilib. 2 il əvvəl isə L.Quliyevanın barəsində 317-ci *(cəzaçəkmə müəssisəsinin və ya istintaq təcridxanasının normal fəaliyyətini pozma)* maddəsi ilə cinayət işi başlanılıb. Həmin cinayət işi ilə əlaqədar onun cəzası 5 il 6 ay artırılıb.**

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 22 (6050) 31 yanvar 2015



# Oxucu senzurası

Samir SARI

**İşimiz getdikcə çətinləşir, əziz oxucular. Hakimiyyətin "onu yazmayın, bunu yazmayın" kimi arzu-istək-tələb-qadağaları ilə birtəhər baş edə bilirik, amma artıq həmkarlarımızın və oxucuların eyni münasibəti ilə üz-üzə, həm də kərəvəngə qalmışıq.**

Nədən yazırıqsa, yazaq, mütləq bir ağıllı ya zəng edib deyir, ya da belə bir şərh yazır: "İşiniz, gücünüz qurtarıb, yazmağa başqa mövzunuz yoxdurmu?"

Məsələn, yağış yağır, küçələri sel basır, adamlar gölməçələrin ortasında, türkün sözü, mahzur, məhzun qalırlar, əməkdaşımız yazır, ertəsi gün qəzəbli zəng gəlir: "Yalnız pis şeyləri yazırsınız. Yaxşı işlərdən görmürsünüz".

Dustağı məhbəsdə döyüb öldürürlər, əzizlərini fəryadı ərşə qalır, reportyorumuz tablaşmır, bir şeylər yazır. Material sayta qoyulandan yarım saat sonra şərh gəlir: "Qərəzlisiniz. Türmənin rəisindən umacağınız var".

Məhkumə türmədə uşaq doğub, aləm dəyib bir-birinə, qalmaqal yaranıb, hamı kimi, biz də yazırıq, oxucular maraqla oxuyur, hər kəs serialın axır bölümünü intizarla gözləyir, bəziləri isə təhəmmül edə bilmir, şərh, mesaj, status yazırlar: "Qəzetçilər ucuz mövzu tapıblar"; "Media bu ayı da Lamiyə xəbərləri ilə yola verir" və s.

Sanki gənc və binəsib qadın türmədə ana olmasaydı, ölkədə yazmağa mövzu olmayacaqdı.

Bir başqası isə əmindir ki, bu mövzu ona görə gündəmdən çıxmır ki, hazırkı daxili işlər naziri Penitensiar Xidmətin rəisinin karyerasına balta vurur, o nazir ola bilməsin deyə.

İranda, Türkiyədə, Gürcüstanda 5-6 min qiyməti olan tibbi əməliyyatın öz ölkəmizdə 20 mindən aşağı olmadığından yazırsan, "oxucu" zəng edib dalaşır: "Öyrənmisiniz özümüzünküləri pisləməyə, siz gedin xaricilərə yaltaqlanın". Deyirsən, nə yaltaqlanmaq, adamın canı, pulu gedir və məqsəd yaltaqlanmaq deyil, sağalmaqdır.

Yazırsan ki, bəzi universitetlərdə təzə rüşvət bicliyi çıxıb, dərsi qavramayan tələbələr semestrdə imtahan götürəcək müəllimin yanına məşğələyə gedir, ona ayda repetitor haqqı olaraq 300 manat ödəyir, axırda fənni, predmeti bilməsələr də müvəffəq qiymət alır, kursdan-kursa keçirlər, dərhal biri şərh yazır: "İndi nə deyirsiniz? Tələbələr müəllimlərin yanına məşğələyə getməsinlər? Öyrənməsinlər?"

O gün bir oxucu bizi müqəddəslərə and verib ki, nə Hafiz Hacıyevdən, nə də Tolikdən yazmayaq. Başqa bir oxucu isə Əli Mirəliyevdən yazacağımız təqdirdə saytı bir daha açmayacağı ilə hədələyib. Elza Seydcahandan yazmağımıza söyüş qoyan oxucumuz da var.

İndi bir problem də var, "Müsavatdan niyə yazırsınız, demirdiniz ki, partiya qəzeti deyilsiniz" kimi irad bildirən şəxsi tapıb icazə almalıyıq. Hələ başqa sifarişlərimiz də var: "Qüdrətin partiyasının xəbərləri nə qədər vacibdir ki, sizin saytda gedir?"; "Asim Mollazadənin səfərləri mənim nəyimə lazımdır, niyə sayta girib onu oxumalıyam?"; "Azay Quliyev gündə bir görüş keçirir, şəkillərini verirsiz, nəyimizə lazımdır?"; "Vüqar Bayramova, Natiq Cəfərliyə çox yer verirsiz"; "Qubad İbadoğlu Müsavata qarşı çıxır, amma siz onun açıqlamalarını, yazılarını verirsiniz". "Ramil Usubovdan niyə yazmırsınız?"; "Ziya Məmmədovdan nə qədər yazacaqsınız?"; "Kəmaləddin Heydərovu yaddan çıxarmısınız, görünür, sizə də şirəli içkilər gəlir"; "Elmar Vəliyev haqq-hesabını çatdırdı, ona görə daha ondan yazmırsınız?" (Əgər yazmışıqsa, val dəyişir) "Aha, Elmar Vəliyev hesabınızı gecikdirib, ona görə yazdınız, eləmi?"; "İŞİD-dən yazmayın e, öz quldur, başkəsən məmurlarımızdan yazın"; "Son illərdə 300 körpü tikilib, bunlardan yazın"; "Yol tikintisində mənimsənilən milyardlardan yazın" və sair və ilaxır.

Bax, vəziyyət belədir. Hələ o gün Elşad Abdullayev də belə bir şərh yazıb: "Feysbuk səhifəmdə "Filankəssayağı adam oğurluğu" başlıqlı yazı yazmışam, onu niyə götürüb vermirsiniz?" Əməkdaşımız da ona belə bir cavab verib: "Ona görə verməmişik ki, bizim qəzeti sizin ABU kimi bağlamasınlar". Bir nəfər də bu cavaba hiddətlənib: "Elədirsə, qəzetinizi bağlayın, gedin başqa işlə məşğul olun".

**Variant yoxdur. Əgər oxucular da təzyiqi, senzuranı bu cür davam etdirsələr, gərək elə edək...**

# Fransa prezidentinin "soyqırımı" tanıma çağırışı erməniləri ürəkləndirir

## Orxan Qafarlı: "Əgər bir neçə il əvvəl bunların məqsədi "soyqırım"ın daha çox dövlət tərəfindən tanınmasına nail olmaq idisə, indi Türkiyənin zəfər bayramı tədbirlərinin alınmamasına çalışırlar"

**Fransa prezidenti Fransua Olland Türkiyə dövlətini qondarma "erməni soyqırımını" tanımağa çağırıb. "Aprelin 24-də Ermənistanda olacağam. Və Ermənistanda bir şəxs kimi yox, Fransa dövlətinin təmsilçisi qismində olacağam". Musavat.com erməni qaynağına istinadən xəbər verir ki, bu sözləri Fransa prezidenti Fransua Olland Parisdə erməni diasporunun hər il təşkil etdiyi ənənəvi tədbirdə çıxışı zamanı deyib. Tədbirdə erməni əsilli fransız müğənni Şarl Aznavur da iştirak edib.**

Fransa prezidenti çıxışında tarixdən, "genosid"dən, danışıb və qeyd edib ki, "ermənilərin iztirablarını yaxşı anlayır". Ermənilərə xitab edən Olland deyib: "Bilin ki, Fransa sizinlə fəxr edir".

Olland Qarabağ məsələsinə də toxunub. Qeyd edib ki, bütün vasitələrlə problemin həllini tapmağa çalışmaq lazımdır. Eyni zamanda o, Ermənistana Fransanın maliyyə yardımını artırmağın zəruriliyini dilə gətirib. "Çünki Ermənistan bizim kiçik qardaşımızdır".

**Qeyd edək ki, daha əvvəldə Fransa hakimiyyət nümayəndələri Ermənistanı dəstəkləyən bəyanatlarla çıxış edib.** Eyni zamanda ATƏT Minsk Qrupunun 3 həmsədr ölkəsindən biri olan Fransa ermənipərəst dövlət kimi çıxış edir. Bu ilin aprelində ermənilərin dünya miqyasında qondarma "soyqırımın" 100 illiyini qeyd etməyə hazırlaşdığı bir zamanda Fransa prezidentinin bu cür çıxış etməsi Ermənistana açıq dəstək olmaqla yanaşı, eyni zamanda Türkiyə hökumətinin ermənilərlə başlatdığı yumşalma prosesini zərbə altında qoyur. Eyni zamanda bu il apreldə keçiriləcək Çanaqqala qələbəsinin



Orxan Qafarlı

100 illiyi münasibətilə Türkiyənin keçirməyə hazırlaşdığı tədbirlərə öz cavabını ortaya qoymuş olur.

**Yeni Türkiyə Strateji Araşdırmalar Mərkəzinin eksperti, politoloq Orxan Qafarlı** deyir ki, Fransanın Ermənistanla çox sıx əlaqələri var. Məhz bu amilə görə, Fransanın Azərbaycan və Türkiyə ilə münasibətlərində soyuqluq olduğunu qeyd edən ekspertin fikrincə, Azərbaycanın Fransa ilə münasibətləri istiləşdirmək cəhdləri də uğursuz olub: "Azərbaycan son illər Fransa ilə bir sıra əməkdaşlıqlar inkişaf etdirərək fransızların düşüncəsini dəyişmək istəyib. Amma göründüyü kimi bu, mümkün olmamışdı. Fransız xalqının dəyişməyən bu ictimai rəyi var ki, türklər ermənilərə qarşı soyqırım törədib. Və bu ictimai rəy Fransız toplumunda ədəbiyyat və incəsənət tərəfindən qəlibləşmiş bir inancdır".

**Türkiyənin ermənilərin "soyqırım" tədbirlərinə qarşı Çanaqqala qələbəsi ilə bağlı tədbirlərinin dünyada eyni gündə iki fərqli qütbün tədbiri kimi tarixə düşəcəyini qeyd edən O.Qafarlı Fransa prezidentinin açıqlamasının erməniləri cəsarətləndirəcəyini deyir:** "Azərbaycan və Türkiyə arasında "erməni məsələsi" ilə bağlı ortaq hərəkət edilməsi qərarlaşdırılıb. Türkiyənin bu tarixdə Azərbaycan prezidenti ilə birlikdə Çanaqqala zəfərini qeyd etməsi erməni dövləti və diasporu tərəfindən bir zərbə olaraq qəbul edilib. Azərbaycan və Türkiyə arasında olan anlaşmalara cavab vermək üçün Ermənistan 24 apreldə dünya liderlərini İrəvana dəvət edir. Demək, regionda eyni tarixdə iki fərqli beynəlxalq tədbir keçiriləcək. Türkiyə Çanaqqala zəfərini qeyd edəcək və Azərbaycan başda olmaqla dünya liderlərini dəvət edib. Ermənistan da eyni tarixdə dünya liderlərini sözdə "erməni soyqırımının" yüz illiyinə dəvət edib. Bu liderlərdən ilk razılığı Fransa prezidentə Olland verdi. İndi erməni diasporu bir-bir Avropa liderləri ilə görüşərək Türkiyənin dəvətinə qoşulmamalarını və Ermənistana gəlməsini istəyir. Erməni diasporu və dövlətinin əsas məqsədi indiki məqamda Türkiyənin Çanaqqala zəfər tədbirlərinin baş tutmamasına və ya mümkün qədər Ermənistanda keçirilən "soyqırımı tədbirlərinin" kölgəsində qalmasını nail olmaqdır. Bunun üçün Türkiyəyə növbəti zərbəni bu şəkildə vurmaq istəyirlər. Amma özləri də bilmədən 24 apreldəki əsas məqsədlərindən yayınırlar. Əgər bir neçə il əvvəl bunların məqsədi dünya ölkələrində qondarma soyqırımın daha çox dövlət tərəfindən tanınmasına nail olmaq idisə, indi Türkiyənin zəfər bayramı tədbirlərinin alınmamasına çalışırlar. Bu bir anlamda Türkiyənin strateji olaraq marağına cavab verir. Çünki Ermənistan strateji hədəfindən yayındırmış olur".

❑ **KƏNAN**

# İki partiya sədri Milli Şura rəhbərliyindən kənarda saxlanıb

## İstiqlalçı deputatlara bu münasibətin arxasında kim dayanır?

**Ötən həftə sonunda Milli Şuranın sessiyası keçirilib. Sessiyada əsasən, təşkilati məsələlər, qarşıdan gələn parlament seçkiləri və seçkidə iştirak formatı müzakirə edilib. Toplantıda Milli Şuranın rəhbər orqanı olan Koordinasiya Mərkəzinin növbəti bir il üçün üzvləri də seçilib. KXCP sədri Mirhamud Mirəlioğlu və Vahid Azərbaycan Milli Birlik Partiyasının sədri Hacıbaba Əzimov Koordinasiya Mərkəzinin üzvü seçilməyiblər.**

Həmin sessiyaya qədər Koordinasiya Mərkəzinin üzvü olan istiqlalçı deputatların Milli Şura rəhbərliyindən kənarda saxlanması maraq doğurub. Məlumatlara görə, M.Mirəlioğlunun və H.Əzimovun hətta namizədlikləri belə, irəli sürülməyib. Onların hər ikisinin uzun müddətdir Milli Şuranın fəaliyyətində iştirak etməmələrinin barələrində bu cür mövqe nümayiş etdirilməsinə səbəb olduğu bildirilir. Eyni zamanda belə fikirlər də yayılıb ki, hər iki partiya sədrinin Koordinasiya



Mirmahmud Mirəlioğlu



Hacıbaba Əzimov

Mərkəzinə namizədliyinin verilməsinin qarşısını Milli Şurada söz sahibi olan AXCP sədri Əli Kərimli alıb.

KXCP-dən Milli Şuranın rəhbərliyinə yalnız Oqtay Gülalıyev seçilib. Qeyd edək ki, hələ bir müddət əvvəl məlumat vermişdik ki, KXCP sədri Milli Şura rəhbərliyindən kənarda saxlanılacaq. Səbəb isə Mirəlioğlunun Milli Şuranın tədbirlərinə getməməsi, bu qurumdan kənar fəaliyyət göstərməsi idi. Həmçinin bildirilirdi ki, Milli Şurada əsas söz sahibi olan AXCP sədri Əli Kərimli də Mirmahmud Mirəlioğlunun rəhbərlikdə təmsil olunmasını istəmir.

Mirmahmud Mirəlioğlunun hadisəyə münasibəti belə olub: "Milli Şuranın toplantısı barədə məlumatsızam.

**Qeyd edək ki, bir müddət əvvəl M.Mirəlioğlu Milli Şuranın öz missiyasını bitirdiyini bəyan etmişdi:** "Bütün rıçaqlar əllərində olmasına baxmayaraq, 1 il hakimiyyətdə qala bilməyən dostların, əqidədaşların sonradan prezident seçkiləri ilə bağlı qurum yaradıb, bəziləri istəyirlər ki, bu qurum uzunömürlü olsun. Bu adamlar hakimiyyətin uzunömürlü olması üçün belə çalışmadılar, amma müxalifətdə olanda bir qurumun ömrünün sonsuzluğa qədər davam etməsini istəyirlər".

**Hacıbaba Əzimov isə Milli Şuranın Koordinasiya Mərkəzinin üzvlüyünə namizədliyinin verilməməsi və nəticədə kənarda qalmasına heç bir münasibət bildirmək istəmədi.**

❑ **E.SEYİDAĞA**

# "Hafka"ya iki böyük zərbə: "Bakı"da və Fransada...

**Nəqliyyat naziri Ziya Məmmədovla keçmiş şəriki "Bağlan Group"un sahibi Hafiz Məmmədov ("Hafka") arasında əmlak davası yeni müstəviyə keçib. Hələ bir neçə ay əvvəl mətbuatda belə xəbərlər dolaşırdı ki, nazirin oğlu, "Garant Holdinq"in prezidenti Anar Məmmədov "Hafka"ya məxsus "Bakı" klubunun Biləcəridəki bazasını təhvil verməsini istəyir. Hətta "Hafka"ya bazanı boşaltmaq üçün ultimatum verildiyi, əks təqdirdə geniş ərazinin buldozerin qabağına verilib dağıdılacağı söylənirdi. Maraqlıdır ki, bazanın yerləşdiyi ərazi nazirin oğlunun mülkiyyəti, onun üzərində tikilən daşınmaz əmlak isə "Hafka"ya məxsusdur.**











## Nazir oğlu "əjdaha" rolunda

### Keçmiş şəriklərin davası yeni mərhələdə; Anar Məmmədov "Bakı" klubunun bazasının suyunu kəsdirib; bazanın yerləşdiyi ərazi nazirin oğlunun mülkiyyəti, onun üzərində tikilən əmlak isə Hafiz Məmmədova məxsusdur; biznesmenin borclu olduğu "Lans" aşağı liqaya göndərilir



**"Bakı"nın maliyyə problemlərini AFFA rəhbərliyi öz üzərinə götürməklə "Hafka" müvəqqəti "nəfəs ala" bildi, klubun bazasının maliyyə çətinliyi ilə olsa da saxladı. Amma son günlər "Bakı"nın təlim-məşq bazası əsl blokadaya alınıb.**

Belə ki, bir neçə gündür ki, Anar Məmmədovun adamları "Bakı"nın bazasının suyunu kəsib. Onlar Hafiz Məmmədova bu yolla təzyiq edib nazir oğluna məxsus ərazini tərk etməsini istəyirlər. A.Məmmədovu rəhbərlik etdiyi şirkətin 4 mühafizəçisi də bazaya gələn suyun kəsildiyi yerdə keşik çəkir, su təchizatının bərpa olunmasına imkan vermirlər. Bu barədə xəbər verən futbolinfo saytı yazır ki, "Bakı" rəhbərliyi burada məşq edən futbolçuların yuyunması üçün xüsusi çənlərlə bazaya su daşıyırlar.

"Bakı"nın bazasına bitişik ərazidə Qolf Federasiyasının binasını tikdirən A.Məmmədov həm "pis qonşudan" yaxa qurtarmaq, həm də rəhbərlik etdiyi federasiyanın ərazini genişləndirmək istəyir.

Əsas problem ondadı ki, U-12 və U-13 liqalarının oyunları bu bazanın stadionlarında keçirilir. Bundan başqa qızlardan ibarət Azərbaycan millisinin Gürcüstandan olan həmyaşıdları ilə fevralın 6-da və 8-dəki beynəlxalq yoldaşlıq görüşləri, eyni zamanda onların 9 məşqi də bu bazanın stadionunda baş tutmalıdı. Gürcüstan və Azərbaycanın 17 yaşlılardan ibarət qadın millilərinin 3 məşqi və fevralın 18-dəki rəsmi oyunu da bu bazaya təyin olunub. Beləliklə, iki keçmiş şərikin mülk davası həm də AFFA rəhbərliyini beynəlxalq qınağa çevirə bilər.

Nə baş verdiyini öyrənmək üçün yanvarın 30-da başıbəlalı bazada olduq. Təlim-məşq bazasında ilk baxışdan hər şey normal görünürdü. Gənc futbolçular stadionda məşq edir, hər kəs öz işi ilə məşğul idi.

**Stadionun ərazisində dayanan klub əməkdaşlarına yaxınlaşdıq.**

*- Klub rəhbərliyindən kimlə görüşə bilərəm? Jurnalist kimi bir neçə sualım var.*

- Baxın, orada dayanıb (əli ilə stadionun yaxınlığında dayanmış şəxsi göstərir - red). Nail müəllimdir. Ona yaxınlaşın, sizə o cavab verə bilər.

Nail müəllimə yaxınlaşdıq. Nail müəllim jurnalist olduğumuzu biləndən sonra "mən futbola baxmağa gəlmişəm, buranın işçisi deyiləm. Elə bir səlahiyyətim yoxdur. Yaşar Seyidovla danışın" deyərək uzaqlaşdı. "Bakı" futbol klubunun icraçı direktoru Yaşar Seyidovla söhbət etməyə çalışsaq da, onu yerində tapa bilmədik. Öyrəndik ki, Y.Seyidov AFFA-da toplantıdadır.

Və onunla görüşümüz baş tutmayacaq.

Adının çəkilməsin istəməyən bir əməkdaşdan öyrəndik ki, A.Məmmədov adamlarını təlim-məşq bazasına göndərib və qısa müddət ərzində bazanın boşaldılmasını tələb edib. "Bəziləri klubun bazasının köçürülməsindən, bəzilər isə klubun tamamilə bağlanılmasından danışır. Onu da deyirlər ki, baza artıq Anar Məmmədova məxsusdur və "Hafka"dan tam alınıb".

Amma "Bakı" klubunun bazası ilə bağlı məsələ gündəmdə olarkən H.Məmmədovun daha bir klubu ilə bağlı sensasion xəbər yayılıb. H.Məmmədovun 20 milyon avroya aldığı Fransanın "Lans" klubu Liqa 1-dən uzaqlaşdırılır. Qafqazinfo-nun xəbərinə görə, klub Liqa 2-yə göndərilir. Bununla bağlı Parisin Bezons rayon inzibati məhkəməsi artıq müvafiq qərar çıxarıb. Məhkəmə digər Fransa klubu - "Soşo"nun iddiası əsasında, "Lans"ın maliyyə kriteriyalarına cavab vermədiyini əsas gətirərək bu qərarı qəbul edib.

Qərarda qeyd olunub ki, "Lans"n büdcəsi Fransa Liqa 1-in tələblərinə cavab verməyib. Buna baxmayaraq, komanda bu mövsüm yüksək liqaya buraxılıb. Qərara əsasən, komanda cari mövsüm elitada neçənci yeri tutmasından asılı olmayaraq, növbəti mövsümdən Liqa 2-də oynamalıdır.

"Lans" ötən mövsüm Fransa ikinci liqasınsa ikinci yeri tutaraq birinci liqaya vəsiqə qazanıb. "Lans"dan şikayətçi olan "Soşo" isə ötən mövsüm birinci liqada 18-ci yeri tutaraq ikinci liqaya düşüb. Əgər Fransa Futbol Federasiyasının İcraiyyə Komitəsinin qərarı ilə "Lans" bu mövsüm brinci liqaya buraxılmasaydı, onu "Soşo" əvəz edəcəkdi.Qeyd edək ki, hələlik, Fransa Futbol Federasiyası "Lans"ı ikinci dəstəyə göndərməklə bağlı rəsmi qərar verməyib.

**"Hafka"nın hazırda harada olduğu bilinmir. Son olaraq bilinən budur ki, o, Türkiyədə öz adına avtomobil yük daşımaları ilə məşğul olacaq şirkət qeydiyyatdan keçirib.**

**❑ M.TÜRKMƏN, A.QARA**
**Foto: M.TÜRKMƏN**



# "Xocalıya ədalət" axtarır, öz vətəndaşına fəlakət yaşadır...

### Ziya Məmmədov tabeçiliyindəki işçilərin əli ilə insanlara zülm edir, onun oğlu isə uzaq Amerikada ermənilərin yandırdığı şəhərin təbliğatı hesabına özünə karyera qurur



**Nəqliyyat nazirinin oğlu, Azərbaycan-Amerika Alyansının rəhbəri Anar Məmmədovun son illər lobbiçilik fəaliyyəti ilə məşğul olması və bu barədə xəbərlər zaman-zaman mediada yer alır. Ölkəmiz ABŞ-da lobbiçilik fəaliyyətini əsasən bir neçə qurum vasitəsilə həyata keçirir. Onlardan biri də yeni yaradılmış Azərbaycan Amerika Alyansıdır (Azerbaijan America Alliance).**

Ekspertlər bildirir ki, belə təşkilatlara adətən Azərbaycan elitasının övladları rəhbərlik edir. Cənubi Qafqaz üzrə tanınmış analitik Tomas de Vaalın fikrincə, "oliqarx balalarının xaricdə lobbiçilik etməsi Azərbaycan fenomeninə çevrilib".

"Garant Holding"in İdarə Heyətinin sədri A.Məmmədov məhz bu fəaliyyətinə görə ötən ilin yayında beynəlxalq "Yılın altın adamı" (İlin qızıl adamı) mükafatına layiq görülüb. Anar Məmmədov bu mükafata Azərbaycan-Amerika Alyansının rəhbəri olaraq Amerikada Azərbaycan mədəniyyətinin tanınması, Qarabağ və Xocalı məsələsinin gündəmə gətirilməsi, bu mövzuda lobbiçilik üzrə göstərdiyi uğurlu fəaliyyətə görə layiq görülüb.

**Bura qədəri dünya və ölkə gündəmində yer alan xəbərlər kateqoriyasındandır.** Amma bu kateqoriyada yer alan bir başqa xəbər isə Nəqliyyat Nazirliyi müfəttişlərinin demək olar ki, hər gün törətdiyi vəhşiliklərdir. Nazirliyin qanun, etika sərhədlərini aşan monitorinqləri, taksi, yük maşını sürücülərinə tutduqları divan barədə mətbuatın yazmadığı bir gün yoxdur. Bu günə qədər dəfələrlə nazirlik müfəttişlərinin yol maşınlarına sərnişin kimi minib, daha sonra sürücüləri provakasiyaya çəkməsi, maşının açarını əllərindən alması halları baş verib. Bu mənzərələrə baxanda adamda elə təəssürat yaranır ki, sanki nazirliyə qəsdən, düşünülmüş, sistemli şəkildə bu cür səviyyəsiz şəxsləri cəlb edirlər - insanları əzsinlər, həyatından bezdirsin deyə...

**Və indi yaranan paradoksal mənzərəyə baxaq.** Bir tərəfdə milyonlarla pul töküb, "Xocalıya ədalət" kampaniyası keçirən, konqresmenləri, müğənniləri pulla ələ alan, digər tərəfdə isə öz ölkəsində, öz vətəndaşına qənim kəsilənlər. Bu nə pəhriz, bu nə turşu deməkdən özünü saxlaya bilmirsən. Çünki dünyada Xocalıya ədalət istəyən şəxs öz ölkəsində bəlkə bir xocalılının(ya da ağdamlının, şuşalının, bakılının) hüquqlarını saymazyana tapdayır. Konqresmenlərə pul hesabına Azərbaycanı "sevdirmək" çətin iş deyil ki. Önəmli olan bunu edərkən azərbaycanlıları gerçəkdən sevməkdir. Öz vətəndaşına divan tutub, Cona, Marka... Xocalını tanıtmağa çalışmaq isə dəryada balıq sevdası kimidir.

***

**3-4 gün öncə Bakının Yasamal rayonu ərazisində bir mikro-avtobus sürücüsü nəqliyyat müfəttişləri ilə mübahisə etdikdən sonra özünü yandırıb.** 1976-cı il təvəllüdlü Hümbətov Arzuman Hətəmxan oğlu xəstəxanaya yerləşdirilib. Amma onun vəziyyətinin ağır olduğu deyilir. Ziya Məmmədovun işçiləri indiyədək bir neçə sürücünü döyərək şikəst ediblər, hətta bu qarşıdurma zamanı əsəbdən ürəyi partlayıb ölən taksi sürücüləri də olub, mətbuat bu haqda yazıb. Lakin hələ də bu "nəqliyyat canavarları"nı durduran kimsə yoxdur. Nazir atanın tabeliyindəki işçilər ailəsinə çörəkpulu qazanmaq üçün yollara düşən vətəndaşı döysün, öldürsün, şikəst etsin, özünü yandırma həddinə çatdırsın, həmin nazirin oğlu uzaq Amerikada ermənilərin yandırdığı, öldürdüyü, işgəncə verdiyi başqa vətəndaşlara, Xocalı sakinlərinə ədalət axtarsın. Nə qədər ağlamalı və gülməli mənzərədi.

**❑ Sevinc TELMANQIZI**

# Həsən Dəmirçi İranda məhkəməyə verildi

## Güney və Quzey Azərbaycanın tanınmış şəxslərindən olan Həsən ağa Dəmirçi İran hakimiyyəti tərəfindən təqib və təhdidlərə məruz qalıb

**"Yeni Müsavat" İran mətbuatına istinadən bildirir ki, tanınmış muğam ustadı Bakıda aldığı "Türklüyə Xidmət Mükafatı"na görə təzyiqlərlə üzləşib. Məlumata görə, pasportu əlindən alınan Həsən Dəmirçidən adı çəkilən mükafatı dövlətə vermək tələb olunub. Lakin muğam ustası mükafatı onlara verməkdən imtina edib. Məsələ ilə bağlı "Yeni Müsavat"ın əməkdaşı Həsən ağa Dəmirçidən açıqlama alıb. Onun sözlərinə görə, haqqında artıq məhkəmə işi başlanılıb:**



"Dəfələrlə o mükafatı aldığıma görə sorğu-sual olundum. Mənə bildirirlər ki, mükafatı qəbul etməklə İran hakimiyyətinə qarşı hərəkət etmişəm. Və "Borçalı" Cəmiyyətinin sədri Zəlimxan Məmmədovla görüşməyimi siyasiləşdirirlər. Bunu əsas götürüb məni məhkəməyə veriblər".

**"Borçalı" Cəmiyyətinin rəhbəri Zəlimxan Məmmədli Həsən ağa Dəmirçiyə olan təzyiqləri "gerizəkalığın təzahürü" adlandırıb:** "Həsən Dəmirçinin milli musiqimizin təbliğ edilməsi yönündə apardığı işlər misilsizdir. O, Azərbaycan dilinin, türkçülüyün qorunması, milli fikir məsələlərində sözü olan bir insandır, məhz bu amillərə görə təhdid olunub. Ordakı rejimi düşünsək, belə hallar təbiidir. "Borçalı" Cəmiyyəti hər il Güneydən olan tanınmış şəxslərə akademik Zahid Xəlilov adına təsis edilmiş "Türklüyə Xidmət Mükafatı"nı təqdim edir. Bundan əvvəl mükafat alanlar Cavad Heyət, Aşıq Məhbub Xəlil olub. Bu il də Həsən Dəmirçiyə bu mükafatı layiq gördük. Buna görə Həsən bəyi təqib etmək absurddur. Millətini sevməsinə görə mükafat almağın arxasında siyasət axtarmaq, təşviş keçirmək əsassızdır. Hər halda onun etdiyi bütün çıxışlar göz önündə olub. Bizim cəmiyyət siyasi qurum deyil. Biz sadəcə Azərbaycanla Güney və Borçalı əlaqələrinin gücləndirilməsində maraqlıyıq. Amacımız İran və yaxud başqa dövlətin hüquqlarını, konstitutsiyasını pozmaq deyil. Həsən bəyi dəyərli türk kimi tanıyırıq. Biz bacardığımız qədər onu müdafiə edəcəyik. Onun yanında olmağı özümüzə şərəf borc bilirik və təqib olunmasının dərhal dayandırılmasını istəyirik".

Xatırladaq ki, Həsən ağa Dəmirçi öz millətsevərliyi və mübarizliyinə görə bundan əvvəl də dəfələrlə İran hakimiyyəti tərəfindən təzyiq və ittihamlara məruz qalıb. Məlum Qaradağ zəlzələsindən sonra əhaliyə «maddi yardım toplamaqda, qanunsuz yollarla Azərbaycan musiqisinin tədrisi ilə məşğul olmaqda, ölkədə və xaricdə separatçı qruplarla əlaqə saxlamaqda, azərbaycanlı fəallarla görüşməkdə və dövlət quruluşuna qarşı təbliğatda» «təqsirli» bilinərək 6 ay həbs cəzası alıb.

**Sonuncu dəfə Bakıya mükafat üçün dəvət olunan muğam ustası "Yeni Müsavat"a Azərbaycan musiqisi, dilimiz və millətçilik uğrunda gedən mübarizə barəsində maraqlı müsahibə vermişdi.**

❑ Xalidə GƏRAY








**Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ**

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN

Tel: (055) 776-70-34



**Kişilər!!!**

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət! **İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**




# Yeyib-içmək məclisi bıçaqlanma ilə yekunlaşdı

**Bakının Qaradağ rayonu ərazisində bıçaqlanma hadisəsi baş verib. APA-nın məlumatına görə, gecə saatlarında təcili tibbi yardım avtomobili ilə Kliniki Tibbi Mərkəzə qarının kəsilmiş-deşilmiş yarası diaqnozu ilə naməlum şəxs gətirilib. Əməliyyat olunan yaralının həyatını xilas etmək mümkün olub.**

Araşdırma zamanı məlum olub ki, yaralı 34 yaşlı Süleyman Musa oğlu Kazımovdur. Onun xəsarətinin bıçaqlanmaya xas olduğunu müəyyənləşdirən həkimlər bu barədə hüquq-mühafizə orqanlarına məlumat veriblər. Polis əməkdaşlarının apardığı ilkin araşdırma nəticəsində hadisənin baş verdiyi yer və bəzi detalları üzə çıxıb. Məlum olub ki, hadisə Qaradağ rayonun Lökbatan qəsəbəsində, "İkinci massiv" adlanan yaşayış məntəqəsində baş verib. Məlumata görə, Süleyman Kazımov kirayədə yaşadığı evdə daha iki tanışı ilə yeyib-içib. Tanışlar arasında mübahisə yaranıb. Tanışlarından biri masanın üstündəki bıçaqla Süleyman Kazımovu vurub. Həmin şəxs dərhal hadisə yerini tərk edib. Tanışını bıçaqlayan şəxsi saxlamaq hələlik mümkün olmayıb. İstintaq sirri olduğundan, cinayətkarın adı açıqlanmır. Faktı Qaradağ Rayon Polis İdarəsinin 10-cu Polis Bölməsi araşdırır.

# Xırdalanda idman zalında bədbəxt hadisə

**Xırdalan sakini bədbəxt hadisə nəticəsində ölüb. APA-nın Daxili İşlər Nazirliyinin saytına istinadən məlumatına görə, yanvarın 29-da Xırdalan şəhərində şəhər sakini Zabit Babayev işlədiyi idman zalında infarktdan ölüb. Araşdırmalar aparılır.**

# Mühafizə şirkətləri rəhbərlərinin dələduzluqları...

## DİN "Azər Mühafizə" MMC və "Qala BTX" MMC-nin həbs olunan direktorlarının əməlləri haqda məlumat yaydı

**Daxili İşlər Nazirliyi iş adı altında vətəndaşları aldadan iş adamı haqqında məlumat yayıb. DİN-dən verilən məlumata görə, "Azər Mühafizə" MMC və "Qala BTX" MMC adlı özəl mühafizə şirkətlərinin vəzifəli şəxsləri ayrı-ayrı vətəndaşların etibarından sui-istifadə edərək onların külli miqdarda vəsaitlərini ələ keçiriblər. Aparılan araşdırmalarla müəyyən olunub ki, "General" MMC, daha sonra "Azər Mühafizə" MMC və "Qala BTX" MMC adlı özəl mühafizə şirkətlərinin direktoru Vüqar Hüseynov adları çəkilən qurumların vəzifəli şəxsləri Mirabtalıb Cəfərov, Kamil Bayramov, Aydın Həsənov, Fariz Babayev və başqalarından ibarət mütəşəkkil dəstə yaradıb.**

Dəstə üzvləri 2013-2014-cü illər ərzində mühafizəçi və başqa vəzifələrə qəbul olunmaları üçün ayrı-ayrı vətəndaşları aldadaraq depozitə pul qoymalarına inandırıb, sonra taladıqları vəsaitin bir qismini əmək haqqı kimi onlara qaytararaq digərlərinin də bu adla daha çox pul ödəmələrinə nail olublar. Beləliklə də, həmin şəxslər paytaxtda, respublikanın digər şəhər və rayonlarında vətəndaşlara qarşı dələduzluq ediblər. Həmin faktlar üzrə cinayət işi başlanılıb, Vüqar Hüseynov, Mirabtalıb Cəfərov, Kamil Bayramov, Aydın Həsənov və Fariz Babayev barələrində həbs-qətimkan tədbiri seçilib.

Hazırda araşdırma Nazirliyin Baş İstintaq və Təhqiqat İdarəsində aparılmaqla cinayət işi üzrə istintaq-əməliyyat qrupu yaradılıb.

Qeyd edilməlidir ki, vətəndaşlara dəymiş maddi ziyanın ödətdirilməsini təmin etmək məqsədilə təqsirləndirilən şəxslərin daşınmaz əmlakı, avtonəqliyyat vasitələri və qiymətli əşyaları müəyyən edilərək üzərinə həbs qoyulması istiqamətində zəruri tədbirlər həyata keçirilir.

**Xatırladaq ki, bir neçə gün öncə Bakı Şəhər Baş Polis İdarəsi və Şəhər Prokurorluğu adıçəkilən şəxs barəsində birgə məlumat yayıb. 2014-cü ilin noyabr ayınadək müxtəlif məbləğlərdə əmək haqlarını qismən verərək, sonradan isə pulu mənimsəyərək dələduzluq yolu ilə zərərçəkmişlərə xeyli miqdarda zərər vurmasında şübhələr üçün əsaslar olduğundan Vüqar Hüseynova Cinayət Məcəlləsinin 178.2.1, 178.2.2 və 178.2.4-cü (dələduzluq, qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən, təkrar və xeyli miqdarda törədildikdə) maddələrində nəzərdə tutulan ittiham elan edilməklə barəsində məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri seçilib.**

YENİ MÜSAVAT
N 22 (6050) 31 yanvar 2015

# İsmət Abbasov yediyi subsidiyaları qaytaracaqmı?

## Prezidentin müşavirədə dilə gətirdiyi dəhşətli faktla bağlı keçmiş kənd təsərrüfatı naziri yenidən hədəfə gəldi; keçmiş KTN şefinin qarşısında iki yol var...

**Bir neçə gün əvvəl dövlət başçısı İlham Əliyev konfransda kənd təsərrüfatına ayrılan subsidiyalardan da narahatlıqla danışıb. Regionların 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramının icrasının birinci ilinin yekunlarına həsr olunan konfransda çıxışında İ.Əliyev ondan əvvəl məruzə edən, 2013-cü ildə kənd təsərrüfatı naziri təyin edilən Heydər Əsədova xitabən kənd təsərrüfatı məhsullarının bəzilərinin istehsalının aşağı düşməsinin təkcə quraqlıqla bağlı olmadığını deyib:**



“İndi kənd təsərrüfatı naziri bəlkə də demək istəmirdi. Dedi ki, quraqlıqla bağlıdır. Təkcə quraqlıqla bağlı deyil. Çünki əvvəllər qiymətlər şişirdilirdi. Nəyə görə? Subsidiyalara görə. Məgər burada oturanlar bilmir subsidiyalarda hansı pozuntular baş verirdi? Yaxşı bilir və bəziləri bu pozuntuların iştirakçılarıdır. Ona görə buna son qoyulmalıdır. Dövlət bu pulu fermerlərə verir, məmurlara yox. Nəticə çıxarın. Bir daha demək istəyirəm ki, bütün işlərdə şəffaflıq olmalıdır”.

Ekspertlər isə bildirirlər ki, subsidiyaların modelinin dəyişdirilməsinə ehtiyac var.

**İqtisadçı-ekspert Natiq Cəfərli** bildirir ki, model yanlışdır və problemin bir tərəfi də bununla bağlıdır: “Azərbaycanda fermer təsərrüfatlarının subsidiyalaşması haqqında model qəbul olunarkən o zaman da müxtəlif ekspertlər çıxış edərək bu subsidiyalaşma modelinin düzgün olmadığını irəli sürmüşdülər. Bizdəki model fermerlərə əkdikləri sahənin həcminə görə subsidiyaların verilməsidir. Dənli bitkilər, o cümlədən buğda əkənlərə, digərlərinə nisbətən bir az artıq subsidiyalar nəzərdə tutulub. Yəni digər kənd təsərrüfatı məhsulları əkənlərə bir hektara görə 40 manat nəzərdə tutulubsa, buğda və dənli bitkilərdə bu, 80 manat təşkil edirdi. Təbii ki, fermerlərlə bu cür stimullaşdırma effekt verə bilməzdi. Çünki əsasən ərazi, hektarın ölçüsü əsas götürüldüyündən, yerli icra hakimiyyəti nümayəndələri, Kənd Təsərrüfatı Nazirliyinin məmurları həmin sahənin hektarının həcmini artırmaqla subsidiyaların həcmini artırırdılar. Və yerdə qalan vəsaiti öz aralarında bölüşdürməklə məşğul idilər. Bununla bağlı onlarla fakt olub və mətbuat son illərdə bu barədə dəfələrlə mövzular işıqlandırıb. Əslində isə bu modelin özündə problem var, düzgün deyil. Normal ölkələrin subsidiyalaşma modelində son məhsulun həcminə və keyfiyyətinə görə subsidiyaların ödənilməsi üstünlük təşkil edirdi. Yəni fermerlərə bir stimullaşdırma proqramı gətirilirdi ki, onun marağı olsun, daha çox və daha keyfiyyətli məhsul istehsal etsin. Hansı sahədə, neçə hektar sahədə məhsul əkməsinin heç bir əhəmiyyəti yoxdur. Azərbaycan təəssüf ki, bu yolu tutmadı. Və çox primitiv bir yolla, ancaq hektarın həcminə görə subsidiyalaşma yolunu tutdu. Bunun da effekt verməyəcəyi öncədən də bəlli idi”.

**Xatırladaq ki, subsidiyalarla bağlı bu, prezidentin ilk çıxışı deyil. 2013-cü ilin fevralındakı konfransda da İ.liyev bu mövzunu gündəmə gətirmişdi.** Dövlət başçısı həmin tədbirdə subsidiyaların məmurlar tərəfindən mənimsənilməsinə toxunmuşdu. O zaman kənd təsərrüfatı naziri İsmət Abbasov idi. Prezidentin bu çıxışından sonra qəzetlər İ.Abbasovun yaxın zamanlarda vəzifəsini itirəcəyini yazırdı. Doğrudan da İ.Abbasov bu müşavirədən 8 ay sonra nazir postundan uzaqlaşdırıldı. Onu simvolik olaraq baş nazirin müavini postuna təyin etdilər. Həmin vaxt bildirilirdi ki, hüquq-mühafizə orqanlarında İ.Abbasov haqda dosye hazırdı. Onun vəzifədən çıxmasını gözləyirlər. Lakin son anda İ.Abbasovun baş nazirin müavini postuna təyinatı onu həbsdən xilas etdi.

Prezidentin son müşavirədə yenə bu məsələnin üstünə qayıtması deməyə əsas verir ki, İsmət Abbasov mövzusu tam qapanmayıb. Ölkə başçısı dolayısı ilə İ.Abbasova vaxtı ilə dövlət vəsaitini mənimsədiyini xatırlatdı. Belə çıxır ki, sabiq kənd təsərrüfatı naziri ya mənimsədiyi milyonları büdcəyə qaytarmalı olacaq, ya da həbs edilərək dəmir barmaqlıqlar arasına göndəriləcək.

❑ **RÖYA**

# Prezidentin tənqidindən sonra subsidiyaların verilməsində nələr dəyişəcək?

**Azərbaycanda kənd təsərrüfatı sisteminin inkişafı üçün fermerlərə ayrılan subsidiyaların verilməsində yeyinti halları o həddə çatıb ki, ölkənin birinci şəxsi tərəfindən bu məsələ müzakirəyə çıxarılıb. Xəbər verdiyimiz kimi, prezident İlham Əliyev hökumət üzvləri və icra başçıları ilə keçirdiyi son konfransda kənd təsərrüfatına ayrılan subsidiyaların mənimsənilməsi faktına toxunub. Dövlət başçısı bildirib ki, kənd təsərrüfatı məhsullarının istehsalının aşağı düşməsinin təkcə quraqlıqla bağlı deyil: “Məgər burada oturanlar bilmir subsidiyalarda hansı pozuntular baş verirdi? Yaxşı bilir və bəziləri bu pozuntuların iştirakçılarıdır. Ona görə buna son qoyulmalıdır. Dövlət bu pulu fermerlərə verir, məmurlara yox. Ona görə indi statistik göstəricilər daha da realdır”.**



**Vahid Əhmədov:** “Nazirlik artıq subsidiyaların verilməsi ilə bağlı bütün sistemi kompüter sisteminə keçirməyi planlaşdırır”



**Qadir İbrahimli:** “Təəssüf ki, hər iki nazirin dövründə bu problem həll olunmamış qalır”



**KTN sözçüsü Murtuzəli Hacıyev:** “Son illər bu sahədə şəffaflığın artırılması istiqamətində çox işlər görmüşük”

Qeyd edək ki, Kənd Təsərrüfatı Nazirliyinin apardığı istər subsidiyaların verilmə prosesində yeyintilərin olduğu uzun müddətdir mətbuata bəlli olan bir mövzudur. Bundan əvvəl “Aqrolizinq” ASC-nin sədri Əli Bayramovun büdcə vəsaitlərini talaması faktı aşkarlanmış və o istefa verərək ölkəni tərk etmişdi. Mətbuatda bu strukturda hökm sürən korrupsiya, büdcədən fermerlərə dəstək və aqrar sektorun inkişafı üçün ayrılmış yüz milyonlarla vəsaitin talanması barədə çoxsaylı məlumatlara, şikayətlərə rast gəlmək olar.

**“Yeni Müsavat”a danışan iqtisadçı-ekspert Qadir İbrahimli** bildirdi ki, hər iki nazirin dövründə subsidiyalara ayrılan vəsaitin mənimsənilməsi halları o qədər ciddi şəkil alıb ki, ölkə başçısı artıq neçənci dəfə bu problemi qabartmalı olub: “Hər il Kənd Təsərrüfatı Nazirliyinə subsidiyaların verilməsi üçün 80 milyon manata yaxın vəsait ayrılır. Bu vəsait xüsusən fermer təsərrüfatlarının və əkin sahələrinin inkişafı üçün verilir. Təəssüf ki, əvvəlki nazir İsmət Abbasovun dövründə də, hazırki nazir Heydər Əsədovun dövründə də bu problem həll olunmamış qalır. Prezident 2013-cü ilin 12 fevral müşavirəsində də bu məsələyə toxunmuşdu. Subsidiyaların mənimsənilməsi faktını tənqid etmişdi. Bu çıxış üstündən iki il keçdikdən sonra ölkə başçısı son müşavirədə yenidən bu məsələyə qayıtdı. O zaman nazir İsmət Abbasov idi, indi isə Heydər Əsədovdur. Ancaq prezident yenə də eyni fikirləri səsləndirdi. Deməli, subsidiyaların ayrı-ayrı məmurlar tərəfindən mənimsənilməsinin qarşını almaq üçün nazirlik heç bir cəhd etməyib”.

**Ekspertin sözlərinə görə, burada əkin sahələrini ifadə edən rəqəmlərin süni surətdə şişirdilməsi və subsidiyaların silinməsi tendensiyasından söhbət gedir:** “Həmin subsidiyaların konkret olaraq iri fermerlərə, məhz məmurların himayəsində olan fermerlərə verilməsi faktı var. Bu faktlar əsasında Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi də kifayət qədər araşdırma aparıb, bu materiallar Baş Prokurorluğa da göndərilib. Ancaq bu, nəticəyə təsir etməyib. Mən belə düşünürəm konkret olaraq subsidiyaların paylanma mexanizmi dəyişilməlidir. İndiki mexanizm konkret olaraq korrupsiyaya yol açır”.

**Milli Məclisin İqtisadi Siyasət Komitəsinin üzvü Vahid Əhmədov** isə bildirdi ki, ölkə başçısının çıxışından sonra bu sahədə müəyyən qədər şəffaflıq təmin olunacaq: “Bu çox ciddi məsələdir və mütəmadi olaraq mətbuatın gündəmindədir. Nəhayət ki, dövlət başçısı icra orqanlarına göstəriş verdi ki, subsidiyaların paylanması mexanizmində şəffaflıq təmin olunsun. Subsidiyaların paylanmasında müəyyən əyintilərə yol verilir, torpaq sahələri daha çox göstərilir. Mən yaxınlarda nazir Heydər Əsədovla görüşdüm. Cənab nazirin verdiyi göstərişdən biri də subsidiyaları həll etməklə bağlı idi. Nazirlik artıq subsidiyaların verilməsi ilə bağlı bütün sistemi kompüter sisteminə keçirməyi planlaşdırır. Bu zaman bütün informasiyalar kompüter sistemində keçirildikdən sonra həm Maliyyə Nazirliyi, həm də digər icra hakimiyyəti orqanları bu informasiyalara daxil ola biləcək və subsidiyaların verilməsində şəffaflıq olacaq. Mən inanmıram ki, bundan sonra yerlərdə məmurlar hər hansı qanun pozuntusuna yol versinlər”.

**Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidmətinin rəhbəri Murtuzəli Hacıyev** isə “Yeni Müsavat”a açıqlamasında son bir ildə nazirliyin bu istiqamətdə bir çox addımlar atdığını qeyd etdi: “Subsidiyaların verilməsində şəffaflığın artırılması və ictimai nəzarətin təmin olunması məqsədilə Kənd Təsərrüfatı Nazirliyinin saytında 2013-cü ildə yanacaq və motor yağlarına görə, həmçinin 2013-cü ilin payızında buğda və çəltik əkini üçün yardım almış fermerlərin siyahısı, onlara hər hektara görə, dövlət büdcəsinin vəsaiti hesabına verilmiş yardımlar haqqından məlumat yer alır. Kənd Təsərrüfatı Nazirliyinin saytında ayrıca bir ”subsidiyalar" bölməsi yaradılıb və bu haqda informasiyalar orada yerləşdirilib. Burada istehsalçının adından başlamış, əkin sahəsinin hektarına və verilən subsidiyaların məbləğinə qədər məlumatlar orada öz əksini tapıb. İkinci bir tərəfdən Kənd Təsərrüfatı Nazirliyi tərəfindən bütün rayon icra hakimiyyəti orqanlarına müraciət olunub, bu sahədə şəffaflığın artırılması tələb olunur. Subsidiyaların verilməsi üzrə komissiyası yaradılıb, bu komissiyanın qərarı ilə subsidiyalar verilir. Onlar isə rayon icra hakimiyyətlərinin mütəxəssisləri ilə işləyirlər. Bir neçə rayonda biz yoxlamalar aparmışıq. Həmin yoxlamalar əsasında İmişli, Şabran, Beyləqan rayonlarında müəyyən qanun pozuntuları aşkarlanıb və hüquqi qiymət verilməsi üçün Baş Prokurorluğa göndərilib".

**M. Hacıyevin sözlərinə görə, subsidiyaların verilməsi qaydalarının təkmilləşdirilməsi istiqamətində Kənd Təsərrüfatı Nazirliyində müzakirələr aparılır.**

❑ **Nərgiz LİFTİYEVA**

# YENİ MÜSAVAT

Son səhifə

*N 22 (6050) 31 yanvar 2015*


# Bişmiş yumurtanı çiy hala gətirdi

Amerikanın Kaliforniya - İrvin Universitetində çalışan professor bir yumurtanı 20 dəqiqə ərzində 90 dərəcə temperaturda qaynadaraq bişirib, sonra isə çiy halına geri qaytarıb. Yumurtanın tərkibində olan molekulların yenilənməsini bacaran professorun bir çox yeniliyə işıq tutacağı gözlənilir. Həkimlər xərçəng xəstəliyinin müalicəsində istifadə edilən siçan yumurtalarında hazırlanan antibiotiklərin normal hallarda da hazırlana biləcəyinin mümkün olduğunu deyiblər.





## İşsizdir, amma 26 uşağı var

İngiltərədə yaşayan Peter Rolfun 15 fərqli qadından 26 uşağı var. Lakin qadınların hansı ilə evləndiyini xatırlamır. Üstəlik, uşaqlarını işsiz ola-ola böyüdüb. “Daily Mail”in xəbərinə görə, 64 yaşlı kişi bu vəziyyətə üsyan edir: “İnsanlar mənim lüks bir həyat yaşadığımı düşünür, lakin bu belə deyil. İçki içmirəm, narkotikdən istifadə etmirəm, bayıra çıxmıram. Uşaqlarımı xoşbəxt etmək üçün əlimdən gələn hər şeyi edirəm. Bütün pulumu evin xərclərini ödəmək üçün istifadə edirəm”.

Bu üsyanından sonra çoxuşaqlı ataya beş otaqlı bir ev verilib. İldə 46 min sterlinq qazanan Rolf hazırda yaşları 12 ilə 20 arasında dəyişən 7 uşağı və iki nəvəsi ilə birlikdə yaşayır. 14 qızı, 12 oğlu olan Rolf 3 və ya 4 dəfə evləndiyini desə də, insanlar onun 6 dəfə evləndiyini deyirlər. O, bəzi uşaqların anasının kim olduğunu unudur. Bəzi ingilis vətəndaşları isə işsiz bir adamın bu qədər uşağa sahib olmasını axmaqlıq hesab edirlər.

# Bir qadın üçün ideal kişi necə olmalıdır?

1. İdeal kişi hər zaman hesabı ödəyər.
2. Hər zaman birinci o zəng edər.
3. Görüşmə və nə yeyəcəkləri ilə planları o qurar.
4. Az saqqal saxlayar.
5. “Ola bilər” “bəlkə də” sözlərindən istifadə etməz. Fikrini açıq deyər.
6. Üşüyən qızın yanında gödəkcə ilə oturmaz.
7. Sosial şəbəkələrdə bütün günü aktiv olmaz, hər qarşısına çıxan qız “like” etməz.
8. Whatsapp-da sevgilisi ilə sağollaşdıqdan sonra “online” olmaz.
9. Hədiyyə almaq üçün özəl günləri gözləməz.
10. Özünü keçmiş sevgililərini tanımır kimi aparar.
11. Qadını qadın edən özəllikləri üçün sevər. Ondan “playstation” oynamağı, futbola baxmağı tələb etməz.
12. Adriana Limanın, Cennifer Lopezin, Şakiranın, Sibel Canın deyil, yalnız sevgilisinin fanatı olar.
13. Sevgilisinin onu qısqanması üçün hər şey edər.
14. Yalnız sevgilisi yanında olanda özünə yaraşanı geyinər. Sevgilisi evdə olmayanda yemək bişirər, paltarları ütüləyər, uşağa baxar.
15. Oğlan dostlarının yanında olanda da sevdiyi qızı düşünər. Hətta futbola baxanda da, oyun oynayanda da ağlında sevgilisi olar.






**QOÇ** - Bir neçə günlük süstlükdən sonra işləriniz artacaq. Xüsusən də nahardan sonra bərk yorulacağınız gözlənilsə də, zəhmətinizin bəhrəsini mütləq görəcəksiniz. Ailə üzvlərinizə hörmət edin.

**BUĞA** - Saat 11-15 aralığında yeni simalarla görüşləriniz, uğurlu sövdələşmələriniz gözlənilir. Nəticənin hədsiz dərəcədə uğurlu olmasını nəzərə alıb proqnozumuzun reallaşmasına çalışın. Hər mənada aktiv olun.

**ƏKİZLƏR** - Günün birinci yarısını müəyyən qədər gərginlik içərisində başa vura bilərsiniz. Xüsusən də fəaliyyət zəminində bəzi xoşagəlməzliklər mümkündür. Amma hər halda tədbirli olmalısınız.

**XƏRÇƏNG** - Qarşıda duran bir ayın perspektivlərindən yararlanmaq üçün konkret addımlar atmağa başlayın. Xırda məişət problemlərinə, eyni zamanda dedi-qoduya əbəs yerə vaxt itirməyin. Təklifləri qəbul edin.

**ŞİR** - Ciddi məsələlərin həllində gözləmə mövqeyi tutmayın. Nəzərə alın ki, vaxt dardır və şansları qaçırmaq sizə uzun müddət sıxıntı verə bilər. Gümanınız gələn hər kəsə üz tutun.

**QIZ** - Yaxşı olar ki, vacib işlərinizi saat 16-ya qədər yekunlaşdırasınız. Çünki sonrakı saatlarda passivlik mümkündür. Yeni işgüzar sövdələşmələrdə iştirakınız səmərə verə bilər.

**TƏRƏZİ** - Yersiz risklərdən uzaq olun. Əgər iştirakçısı olduğunuz situasiyaları dərindən duymursunuzsa, inandığınız adamların məsləhətlərindən yararlanın. Vaxtınız əyləncələrə itirməyin.

**ƏQRƏB** - Maliyyə problemlərinizin mövcudluğuna baxmayaraq, bu gündən razı qalacaqsınız. Çalışın ki, görəcəyiniz işləri sistem halına salasınız. Qətiyyən tələskənliyə yol verməyin!

**OXATAN** - İstər qarşılıqlı münasibətlərdə, istərsə də iş prinsipində nailiyyətləriniz arta bilər. Amma axşama doğru bəzi bədxahlar əsəblərinizi tarıma çəkə bilər. Odur ki, sərt reaksiya verməməlisiniz.

**OĞLAQ** - Qərarlarınızda obyektiv olduğunuz təqdirdə mübarizədən çəkinməyin. Amma elə edin ki, ətrafınızda olanlar doğru yol tutduğunuzu qəbul etsin. Pulla bağlı sıxıntılarınız azala bilər.

**SUTÖKƏN** - İxtiyarınızda olan bu tarixdə tamamilə məxfi davranış nümayiş etdirməlisiniz. Belə ki, nəzərdə tutduğunuz planları, məqsəd və arzuları mümkün qədər ətrafınızda olanlara deməməlisiniz.

**BALIQLAR** - Yaxşı olar ki, bu təqvimi bütünlüklə qarşılıqlı münasibətlərin tənzimlənməsinə həsr edəsiniz. Çünki ulduzlar maliyyə və fəaliyyət sahəsində müəyyən gərginlik vəd edir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## -40 dərəcədə bir gecə



İsveçdə soyuq hava şəraitinin hakim olduğu Jukkasarvi bölgəsində inşa edilən buz otel hər kəsin diqqət mərkəzindədir. Hər il dekabr ayında buz kütlələrindən inşa edilən bina aprel ayına qədər ərimədən qalır. Bu müddət ərzində oteldə 50 min müştəri qonaq olur. Qapıların, işıqların, hətta yataqların buzdan hazırlandığı otelin inşaatı üçün hər il 90 min ton buzdan istifadə edilir. Otelin içindəki temperatur -37 olsa da, bayırda -40 dərəcəyə düşə bilir. Oteldə bir gecə qalmağın qiyməti isə 500 dollardır.

Səhifəni hazırladı: ŞAHNAZ


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

“Yeni Müsavat”ın kompüter mərkəzində yığılıb, səhifələnib, “Azərbaycan” nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

Lisenziya N: B 114
SAYI: 5.300